AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

26 YANVAR 2019-cu il ŞƏNBƏ № 20 (6347) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Hindistan Respublikasının Prezidenti Zati-aliləri cənab Ram Nat Kovində

Hörmətli cənab Prezident,

Hindistan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan-Hindistan əlaqələri tarixən təşəkkül tapmış xoş ənənələrə malikdir. İnanıram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bu ənənələri daha da zənginləşdirəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 yanvar 2019-cu il.**

## Avstraliya İttifaqının General-Qubernatoru Zati-aliləri cənab Piter Kosqrova

Hörmətli cənab General-Qubernator,

Avstraliya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avstraliya arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın dərinləşməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Avstraliya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 yanvar 2019-cu il.**

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 1 may tarixli 1099-VQD nömrəli və "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 1 may tarixli 1110-VQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 12.8.3-1-ci maddədən "fəaliyyətinin dayandırılması və bərpa edilməsi," sözləri çıxarılsın.

**2.** Aşağıdakı məzmunda 12.8.3-2-ci maddə əlavə edilsin:

"12.8.3-2. siyasi partiyaların, həmkarlar ittifaqlarının, qeyri-hökumət təşkilatlarının və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin dayandırılması və bərpa edilməsi barədə məlumatlar;".

**3.** 14.2.3-cü maddəyə "fəaliyyət ərazisi," sözlərindən sonra "fəaliyyətinin dayandırılması və bərpa edilməsi," sözləri əlavə edilsin.

**4.** 14.2.4-cü maddəyə "barədə" sözündən əvvəl ", fəaliyyətinin dayandırılması və bərpa edilməsi" sözləri əlavə edilsin.

**5.** 14.2.5-ci maddədən ", habelə fəaliyyətinin dayandırılmasına və bərpa edilməsinə dair" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 dekabr 2018-ci il.**

## Kürdəmir rayonunun Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Altı min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,8 milyon (səkkiz milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 25 yanvar 2019-cu il.**

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1396-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1396-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 25 yanvar 2019-cu il.**

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununu "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1198-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədilə **qərara alır:**

"Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 9, maddə 1820) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6.0.2-ci və 7.0.1-ci maddələrə "icmal" sözündən əvvəl "büdcə qaydasına uyğun hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi də daxil olmaqla," sözləri əlavə edilsin.

**2.** 7.0.3.13-cü maddədə "vahid xəzinə hesabında olan vəsaitin qalığının (sərbəst qalığın)" sözləri "vahid xəzinə hesabının sərbəst qalığının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1425-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1425-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 25 yanvar 2019-cu il.**

# Kənd təsərrüfatında islahatlar prosesi uğurla davam etdirilir

## *Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, kənd təsərrüfatı çox böyük sahədir və bu sahə daim diqqət mərkəzindədir*

**Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən olan aqrar sektorda 2018-ci ildə 4,6 faiz artım olub. Bu, son illərdə kənd təsərrüfatının inkişafına göstərilən böyük diqqət və qayğının nəticəsidir. Dövlət başçısının sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyev bildirib ki, kənd təsərrüfatı çox ciddi, çox böyük sahədir, əhalinin demək olar ki, yarısı kəndlərdə yaşayır, ona görə bu sahə daim diqqət mərkəzindədir: "İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr var. Proqrama görə, bizdə ümumiyyətlə 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır. Ümumiyyətlə isə bütün aqroparkların əhatə etdiyi sahə təqribən 200 min hektara yaxın olacaqdır".**

verilməsi bu sahədə inkişafın sabitliyinə müsbət təsir göstərib.

Aqrar sektorda aparılan islahatlar nəticəsində kənd təsərrüfatı istehsalının böyük dərəcədə artacağını vurğulayan cənab İlham Əliyev bildirib ki, elektron kənd təsərrüfatı sisteminin tam gücü ilə işə düşməsi gündəlikdə duran vacib məsələlərdən biridir. Subsidiyalarla bağlı təkliflər var və bu sahədə də müsbətə doğru çox ciddi dönüş yaranacaq. Ölkədə kənd təsərrüfatını stimullaşdırmaq üçün çox böyük işlər görülüb: "Təkcə keçən il 5800 texnika alınıb. Əvvəlki illərdə bəzən 9 min, 8 min texnika alınıb. Biz texnika parkımızı böyük dərəcədə təzələmişik. Ən qabaqcıl şirkətlərin texnikası alınır, istər taxılçılıqda, istər pambıqçılıqda və digər sahələrdə. Ona görə biz bu sahədə işlərimizi davam etdirəcəyik. Biz kəndliləri torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad etmişik. Mən bilmirəm bu qədər dəstək göstərən ikinci belə ölkə varmı? Gübrə 70 faiz, yanacaq 50 faiz dövlətin hesabına, texnika dövlət tərəfindən alınaraq güzəştli şərtlərlə verilir, subsidiyalar, infrastruktur layihələri.

**(davamı 2-ci səhifədə)**

2018-ci ildə regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatdı və beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Ölkəmizin bölgələrində iri infrastruktur layihələri istifadəyə verildi. Yeni sənaye və emal müəssisələri yaradıldı və yüz minlərlə yeni iş yerləri açıldı. Bunun müsbət nəticəsi kimi kənd təsərrüfatı daha yüksək templə inkişaf etdi.

İndi Azərbaycanda aqrar sektorda rəqabət üstünlüyü olan kənd təsərrüfatı məhsullarının regional və sahəvi inkişafı, yerli və xarici bazarlara çıxışının asanlaşdırılması, fermer tərəfdaşlığının formalaşdırılması, aqrobiznesin və kənd təsərrüfatı məhsulları emalının inkişafı, aqrar sahədə elm və təhsilin keyfiyyətinin yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun qurulması prosesləri uğurla davam etdirilir. Təbii resurslardan səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahələrinin dəyər zənciri üzrə inkişaf etdirilməsi üçün şərait yaradılıb, ölkədə ərzaq təhlükəsizliyinin dayanıqlığı təmin olunub. Bununla da qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunaraq kənd təsərrüfatı sahəsində çalışanların gəlir əldəetmə imkanları yaxşılaşıb.

Ötən müddətdə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafında, eləcə də əhalinin məşğulluğunun artırılmasında mühüm rol oynayan aqrar sahə ilə bağlı ardıcıl qərarların qəbul edilməsi, Dövlət proqramlarının həyata keçirilməsi, kənd təsərrüfatı istehsalçıları üçün vergi güzəştlərinin tətbiq edilməsi, subsidiyaların



# Birinci vitse-prezident Mehriban Əliyeva işdən ixtisar olunan əməkdaşların işlə təmin edilməsi ilə bağlı "Azərenerji" ASC-yə göstəriş verdi

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC-də çalışan və işdən ixtisar olunan əməkdaşların müvafiq işlə təmin edilməsi barədə "Azərenerji" ASC-yə göstəriş verib.**



AZƏRTAC xəbər verir ki, 2018-ci il dekabrın 13-də bir qrup şəxs "Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC-də tutduğu vəzifəsindən azad olunması ilə bağlı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya məktubla müraciət edib. Müraciətin araşdırılması nəticəsində məlum olub ki, 2018-ci il iyulun 3-də Mingəçevir şəhərindəki Azərbaycan İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə əlaqədar enerji sisteminin dövlət əhəmiyyətli strateji obyektlərində təxribat və terror xarakterli əməllərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər kimi bu obyektlərin mühafizəsinin Daxili İşlər Nazirliyinin Mühafizə polisi tərəfindən aparılması barədə qərar qəbul edilib. "Azərenerji" ASC tərəfindən "Azərbaycan İES" MMC-nin mühafizəsinin zəruri hissəsi Daxili İşlər Nazirliyinə həvalə olunduğundan, Mingəçevir və Varvara Su Elektrik Stansiyalarının mühafizəsinin böyük hissəsi Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirildiyindən, eləcə də "Azərbaycan İES" və bir sıra stansiyalarda ağıllı müşahidə kameraları quraşdırıldığından və hasarlama işləri aparıldığından bəzi işçilərin ixtisarı barədə qərar qəbul olunub.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva məsələnin işçilərin əmək hüquqlarının bərpa olunması şərti ilə operativ həllinə və onların müvafiq işlə təmin olunmasına dair göstəriş verib.

**AZƏRTAC**

# Kənd təsərrüfatında islahatlar prosesi uğurla davam etdirilir

***Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, kənd təsərrüfatı çox böyük sahədir və bu sahə daim diqqət mərkəzindədir***

**(əvvəli 1-ci səhifədə)**

İndi 100 min hektar torpağın dövriyyəyə cəlb olunması, suvarma suyu ilə təmin edilməsi, yolların çəkilməsi - bütün bunlar güzəştli kreditlər hesabınadır. Sahibkarlığın inkişafına yönələn kreditlərin əksəriyyəti kənd təsərrüfatına gedir".

Ölkədə iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlığa dövlət dəstəyinin verilməsi dövlət başçısının müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindən biridir. Sahibkarlığa dövlət dəstəyinin əyani göstəricisi kimi qeyd etmək yerinə düşər ki, ötən il ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370 milyon manat məbləğində subsidiya və güzəştlər verilib. Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb. İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib və 17 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərilib. Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15 milyon manat məbləğində ixrac təşviqləri ödənilib.

Beləliklə, əgər 2016-cı ildə kənd təsərrüfatı məhsul istehsalının artımı cəmi 2,6 faiz təşkil edirdisə, 2017-ci ildə bu göstərici 4,2 faiz, 2018-ci ildə isə 4,6 faizə yüksəlmişdir. 2016-cı illə müqayisədə 2017-ci ildə əksər bitkiçilik məhsullarının istehsalı üzrə daha yaxşı nəticələrin əldə edilməsi bitkiçilik məhsullarının ümumi istehsalının 6,1 faiz artmasına şərait yaratmış, eyni zamanda 2018-ci ildə də 6,8 faizlik artım müşahidə olunmuşdur. Sahibkarlığın, aqrar bölmənin inkişafı üçün dövlət tərəfindən əlverişli mühitin yaradılması, xüsusilə son illərdə müasir istixana komplekslərinin istifadəyə verilməsi, fərdi istixana təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi, bitkiçilik məhsullarının ixracının stimullaşdırılması bu sahəyə marağı artırmış, istixanaların sayı və onlarda yetişdirilən məhsulun həcmi nəzərəçarpacaq dərəcədə artmışdır. Bunun nəticəsidir ki, 2017-ci ildə qeyri-neft ixracında tərəvəzin xüsusi çəkisi 2016-cı ildəki 9,1 faizdən 12 faizədək yüksəlmiş və 184,2 milyon ABŞ dolları dəyərində tərəvəz məhsulu 19 ölkəyə göndərilmişdir.

Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin açılışında aqrar sektorun ölkəmiz üçün strateji sahə olduğunu vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu, həm iqtisadi, həm sosial sahədir: "Əhalimizin 47 faizi bölgələrdə yaşayır. Ona görə son illərdə kənd təsərrüfatının, regionların sosial-iqtisadi inkişafına göstərilən diqqət məhz bu məqsədi güdür ki, həm məşğulluq, həm məhsuldarlıq artsın və Azərbaycan həm öz daxili tələbatını, həm də ixrac edilən məhsulları ən yüksək səviyyəyə qaldırsın".

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

# Fövqəladə hallar naziri Gəncədə bölgə vətəndaşlarını qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanvarın 25-də Gəncə şəhərində Daşkəsən, Gədəbəy, Göygöl, Samux rayonlarının və Gəncə şəhərinin sakinlərinin, həmçinin həmin şəhər və rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.



Fövqəladə hallar naziri tərəfindən qəbul edilən 18 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib. Bundan başqa, kadr məsələləri ilə bağlı 156, digər məsələlərlə bağlı müraciət etmiş 32 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

**AZƏRTAC**

# Almaniyada Azərbaycan sülh və ədalət istəyir şüarı altında aksiya keçirilib

**Almaniya Azərbaycanlıları Koordinasiya Şurasına daxil olan Köln Türk Azərbaycan Kültür və Dayanışma Cəmiyyətinin, Köldə fəaliyyət göstərən Alman-Azərbaycan Dostluq Cəmiyyətinin, Alman-Azərbaycan Mədəniyyət Evinin təşəbbüsü və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə aksiya keçirilib.**



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Avropanın aparıcı dövləti olan Almaniyada insan azadlığı və hüquqlarına həssas yanaşılması, bu ölkənin ATƏT-də nüfuz sahibi olması və ən əsası beynəlxalq hüquq və prinsiplərə hər zaman hörmətlə yanaşması belə bir aksiyanın keçirilməsinə stimul verib.

Aksiya Azərbaycan sülh və ədalət istəyir!, Avropa, uşaqların qətlinə göz yumma!, Dinc əhalinin qətlini dayandırın!, Ermənistanın təcavüzünə son!, Snayper gülləsinə tuş gələn uşaq!, 1992-2018 uşaqların qətli davam edir!, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir!, Biz sülh deyirik!, Dilqəm və Şahbaza Azadlıq! şüarları altında keçirilib.

Aksiyada çıxış edən soydaşlarımız erməni vandalizmindən söz açıb, Dağlıq Qarabağın Azərbaycanın tarixi əraziləri olduğunu konkret faktlarla qeyd edib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı bir milyondan çox insanın doğma yurdlarından didərgin salınması, mülki şəxslərə qarşı erməni qəddarlığı, öz dədə-baba yurdlarına, doğmalarının qəbirlərinin ziyarətinə getmiş Dilqəm və Şahbazın girov götürülməsi, onlara qeyri-insani yanaşaraq işgəncələr verilməsi və s. məsələlər aksiya zamanı bir daha alman cəmiyyətinin və turistlərin diqqətinə çatdırılıb. Eyni zamanda, aksiya çərçivəsində Azərbaycan Respublikası haqqında tarixi məlumatları, Dağlıq Qarabağın tarixini, Azərbaycanın ərazi bütövlüyünə dair BMT qətnamələrini, Azərbaycan xalqının etnik tərkibi haqqında məlumatları özündə əks etdirən minlərlə vərəqə Alman cəmiyyətinin nümayəndələrinə və turistlərə paylanılıb.

Aksiyanın sonunda, tədbirin nəticəsi olaraq, Almaniyanın hakim dairələrinə bəyanat təqdim olunması qərara alınıb. Bəyanat aksiya iştirakçıları tərəfindən təsdiqlənib və qeyd olunub ki, ən qısa zamanda Almaniyanın ali qurumlarına təqdim ediləcək.

**AZƏRTAC**

# ABŞ-ın nüfuzlu radiosunda 20 Yanvar faciəsindən danışılıb

**ABŞ-da geniş auditoriyaya malik Con Batçelor Şou radio proqramı yanvarın 24-də canlı yayımını Qara Yanvar faciəsinə həsr edib.**




Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovla müsahibədə Azərbaycan xalqının azadlıq və müstəqillik əzmini qırmaq üçün törədilmiş bu faciə zamanı xalqımızın fədakarlıq göstərərək qəhrəmanlıq tarixi yazmasından bəhs olunur. Müsahibədə Azərbaycanın müstəqilliyinin təməli olan Qanlı Yanvar faciəsinin eyni zamanda Sovet İttifaqının sonunun başlanğıcı olduğu vurğulanır. Həmçinin bildirilir ki, 20 Yanvar faciəsinin çoxsaylı qurbanlarının matəm yürüşünün önündə Azərbaycanın müsəlman, yəhudi və xristian din xadimləri birgə dayanmışdılar. Bu isə Azərbaycanın nə qədər açıq və tolerant cəmiyyət olmasının göstəricisidir.

Proqramda bildirilir ki, hər il olduğu kimi, bu il də Azərbaycan xalqı bir araya gələrək 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsini yad edir, Bakı şəhərini 29 il bundan öncə bu faciənin simvoluna çevrilmiş qərənfillərə qərq edir.

Eyni zamanda, qeyd edilir ki, bu faciə keçmiş Sovet İttifaqına daxil olan bir sıra ölkələrdə, o cümlədən Qazaxıstan, Gürcüstan və Baltikyanı ölkələrdə keçirilən əməliyyatlarla müqayisədə xüsusi qəddarlıq və amansızlıqla törədilib. Həmin zaman keçmiş Sovet İttifaqının rəhbəri olan Mixail Qorbaçov dinc əhaliyə qarşı silah tətbiq edilməsinə dair şəxsən əmr verib.

Qeyd edək ki, Con Batçelor Şou gündəlik həyatda aktual olan beynəlxalq hərbi, siyasi və iqtisadi mövzulara həsr olunur. Həftənin hər günü yayımlanan bu şou ABŞ-da milyonlarla dinləyici auditoriyasına malikdir.

**AZƏRTAC**

# Mədəniyyət naziri Xızıda vətəndaşların müraciətlərini dinləyib

**Yanvarın 25-də mədəniyyət naziri Əbülfəs Qarayev Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbulda Sumqayıt, Abşeron, Xızı, Zəngilan, Qubadlı və Şuşadan olan sakinlər iştirak ediblər.



Qəbuldan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, abidə önünə tər çiçək dəstələri düzülüb.

Sonra nazir Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib.

Sumqayıtdan qəbula gəlmiş sakinlər 2019-cu ilin ölkəmizdə Nəsimi ili elan edilməsi ilə bağlı şəhərdə Nəsimi poeziyası respublika festivalının keçirilməsi, rəssamların və tətbiqi sənət ustalarının əl işlərinin xarici ölkələrdə sərgi və satışının təşkil olunması, 2016-cı ilin Aprel döyüşlərində şəhid olmuş Əbdülməcid Axundova həsr olunmuş Mən səninləyəm, ana Vətən sənədli-bədii filminin Bakıda təqdimatının keçirilməsi və digər məsələlərlə bağlı xahişlərini nazirə çatdırıblar.

Abşeron rayonundan qəbula yazılan vətəndaşlar uşaq musiqi və incəsənət məktəblərində axşam şöbələrinin yaradılmasını xahiş ediblər.

Xızı sakinləri rayondakı Cəfər Cabbarlı adına Mədəniyyət Mərkəzinin müasir tələblərə cavab verən yeni binaya köçürülməsi, C.Cabbarlı adına Mədəniyyət Mərkəzinə və ev-muzeyinə direktor vəzifəsinə təyinat, işlə təmin olunma barədə müraciət ünvanlayıblar.

Zəngilan rayonundan olan vətəndaşların müraciəti mədəniyyət müəssisələrində attestasiyanın keçirilməsi və müvəffəqiyyət əldə etmiş kadrların işinin qiymətləndirilməsi barədə olub.

Qubadlı rayonundan qəbula yazılmış vətəndaşlar məcburi köçkün ailələri üçün yeni tikilən yaşayış massivlərində musiqi məktəbləri, klublar və mədəniyyət evlərinin yerləşdirilməsi və digər məsələlərlə bağlı xahişlərini bildiriblər.

Niyazi adına Şuşa şəhər incəsənət məktəbinin Təbəssüm rəqs qrupunun xarici ölkələrdə keçirilən beynəlxalq festivallarda iştirakına köməklik göstərilməsi də xahiş edilib.

Bundan əlavə, qəbulda Cabir Novruz Mədəniyyət Fondu tərəfindən Cəfər Cabbarlının 120 illik yubileyinin keçirilməsi ilə bağlı layihə barədə də müraciət olunub.

Qəbulda müraciətlərin bir qismi yerindəcə həll olunub, digərləri araşdırılması məqsədilə nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

**AZƏRTAC**

# ABŞ konqresmenləri Stiv Kohen və Stiv Şabot 20 Yanvar faciəsi ilə bağlı bəyanatlar veriblər

**20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı ABŞ Konqresində Azərbaycan üzrə İşçi Qrupun həmsədri, Tennesi ştatını təmsil edən konqresmen Stiv Kohen və ABŞ Konqresinin xarici məsələlər komitəsinin üzvü Stiv Şabot tərəfindən ayrı-ayrılıqda bəyanatlar verilib.**



AZƏRTAC xəbər verir ki, ABŞ Konqresində Azərbaycan üzrə İşçi Qrupunun həmsədri qismində bəyanat verən konqresmen **Stiv Kohen** Azərbaycan tarixində ən dəhşətli faciələrdən olan Qanlı Yanvar hadisələrinin 29-cu ildönümünün yad edilməsi məqsədilə bəyanat verdiyini diqqətə çatdırır.

Bəyanatda bildirilir ki, 1990-cı il 20 yanvar gecəsi təqribən 26 minlik sovet ordusu tank və zirehli texnika ilə Azərbaycanın paytaxtı Bakı şəhərinə hücum edib. Həmin gecə sovet hərbçiləri silahsız azərbaycanlılara zor tətbiq edib, qadın və uşaqlar da daxil olmaqla dinc nümayiş iştirakçılarını fərq qoymadan atəşə tutub. Bu qəddar hərəkətlər nəticəsində 147 insan həlak olub, 800-ə yaxın insan yaralanıb, 841 nəfər həbs edilib, 5 nəfər isə itkin düşüb.

Konqresmen Human Rights atch təşkilatının Azərbaycanda Qara Yanvar adlı hesabatına istinadən vurğulayır ki, Bakıya hücum zamanı ən ciddi insan hüquqları pozuntularına yol verilib. Belə ki, tibb işçilərinə, təcili tibbi yardım avtomobillərinə və hətta xəstəxanalara hücumlar edilib. Hesabatda sovet ordusu tərəfindən törədilmiş zorakılığın kollektiv cəza üsulu olduğu və Azərbaycan da daxil olmaqla SSRİ-nin digər ittifaq respublikalarındakı millətçilik hərəkatları üçün xəbərdarlıq kimi qiymətləndirildiyi Konqresin diqqətinə çatdırılır. Konqresmen Kohen Azərbaycanın müstəqilliyi uğrunda öz həyatlarını qurban verən şəxslərin ailələri ilə öz dualarını və kədərli düşüncələrini bölüşdüyünü bəyanatda xüsusi vurğulayır.

Qeyd edilir ki, strateji müttəfiq olan ABŞ və Azərbaycan regionda və dünyada ortaq maraqlara malikdirlər. Sonda konqresmen Kohen Azərbaycanda azad bazar iqtisadiyyatı və demokratiya istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayıb.



Konqresin digər üzvü **Stiv Şabot** da bəyanatında 29 il əvvəl sovet qəddarlığı nəticəsində qətlə yetirilmiş insanları xatırlayıb, Azərbaycanın bu tarixi və faciəvi gününü yad edib.

Stiv Şabot bəyanatında 1990-cı ilin 20 yanvar gecəsi 26 minlik sovet qoşunlarının Bakı və ətraf ərazilərdə törədiyi cinayəti qeyd edir, bu faciənin Azərbaycan tarixinə və xalqın yaddaşına Qanlı Yanvar kimi həkk olunduğunu diqqətə çatdırır. Bu hücumu Azərbaycanda müstəqillik hərəkatını boğmağa və sovet ittifaqını qorumağa cəhd kimi dəyərləndirən Stiv Şabot bu faciənin Azərbaycanda və digər respublikalarda müstəqillik hərəkatlarına təkan verdiyini bildirib.

Bəyanatda, həmçinin məlumat verilir ki, Azərbaycan xalqının təzyiqləri ilə 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Soveti Bəyannamə qəbul etdi. Həmin Bəyannaməyə müvafiq olaraq Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. 1991-ci ilin noyabrından etibarən Azərbaycanın müstəqilliyi tanınmağa başlanıb, gənc ölkənin müstəqilliyini tanıyan ilk ölkələrdən olan ABŞ 1992-ci il fevralın 28-də Azərbaycan ilə diplomatik münasibətlər quraraq mart ayında Bakıda səfirlik təsis etdi.

ABŞ və Azərbaycanın region üzrə ortaq maraq və məramlara malik olduğunu, ölkələrin xüsusilə enerji resurslarının inkişafı və təhlükəsizlik təhdidləri ilə mübarizə sahəsində əməkdaşlığını vurğulayan Stiv Şabot digər Konqres üzvlərini Azərbaycanın bu faciəvi gününü yad etməyə çağırıb.

Bəyanatların Konqresin rəsmi gündəliyində qeydiyyata alınmış ingilis dilində mətnləri ilə müvafiq olaraq https://www.congress.gov/116/crec/2019/01/23/CREC-2019-01-23-pt1-PgE7-4.pdf və https://www.congress.gov/116/crec/2019/01/23/CREC-2019-01-23-pt1-PgE8-4.pdf internet səhifələrində tanış olmaq mümkündür.

**AZƏRTAC**

# Azərbaycan beynəlxalq antikorrupsiya fəaliyyətində mühüm rol oynayır





**Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir, ölkəmiz Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (İAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir.**

AZƏRTAC xəbər verir ki, yanvarın 21-24-də BMT-nin Vyanadakı qərargahında İAACA-nın bir sıra iclasları keçirilib. Tədbirlərdə Azərbaycanı ədliyyə naziri, qurumun vitse-prezidenti Fikrət Məmmədovun başçılığı ilə nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə respublika baş prokurorunun müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, habelə nazirliyin və Baş Prokurorluğun məsul şəxsləri də daxil olublar.

İAACA-nın rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclasında əsas təşkilati məsələlərə baxılıb, o cümlədən Assosiasiyanın Ümumi Yığıncağı və İllik Konfransın gündəlikləri təsdiqlənib, təşkilatın Azərbaycanın təklifləri nəzərə alınmaqla razılaşdırılmış yeni Konstitusiyası Ümumi Yığıncağın müzakirəsinə çıxarılıb.

Sonra dünyanın 70 dövlətindən 260-dan çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə, ixtisaslaşmış antikorrupsiya orqanlarının, habelə nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxslərinin, tanınmış hüquqşünasların və alimlərin iştirak etdikləri illik yığıncaqların təntənəli açılış mərasimi keçirilib.

Mərasimdə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotov, İAACA-nın prezidenti, Qətərin baş prokuroru Dr. Ali Al Marri və xüsusi qonaq qismində iştirak edən Malayziyanın Baş naziri Mahathir Məhəmməd çıxış ediblər.

Assosiasiyanın Ümumi Yığıncağında İAACA-nın yeni Konstitusiyası təsdiq edilib, təşkilatın gələcək fəaliyyətinə və antikorrupsiya tədrisinə dair proqramlar qəbul olunub, İcraiyyə Komitəsinin səlahiyyətlərinə dair məsələyə baxılıb.

İllik Konfransda BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının qəbul olunmasının 15 illiyi və bu müddət ərzində onun implementasiyası, BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyində bu sosial bəla ilə mübarizənin rolu, həmçinin antikorrupsiya tədrisi, beynəlxalq əməkdaşlıq və s. aktual məsələlər müzakirə olunub.

Plenar sessiyada BMT-nin rəsmiləri Azərbaycanın Assosiasiyaya yaradıldığı gündən daim göstərdiyi siyasi və əməli dəstəyi, habelə qurumun işinə verdiyi dəyərli töhfələri xüsusi vurğulayıblar.

Konfransda ilk məruzə ilə Azərbaycan nümayəndə heyətinin rəhbəri, İAACA-nın vitse-prezidenti F.Məmmədov çıxış edib. Nazir korrupsiyanın ciddi təhlükəsindən danışaraq, BMT statistikasına əsasən onun beynəlxalq aləmə dünya ümumi daxili məhsulunun 5 faizini təşkil edən 2,6 trilyon dollar ziyan vurduğunu qeyd edib. Çıxışda bu sosial bəlaya qarşı qlobal mübarizə tədbirlərindən, Korrupsiyaya Qarşı Konvensiyanın dünyada implementasiyasının nəticələrindən, bu sahədə İAACA-nın mühüm rolundan və səmərəli fəaliyyətindən bəhs edilib, ölkəmizin Assosiasiya ilə fəal əməkdaşlığı qeyd olunub.

Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulduğunu və bu sahədə 2030-cu ilədək Gündəlikdən irəli gələn öhdəliklərin icrası ilə bağlı Azərbaycan Prezidentinin Fərmanı ilə yaradılmış və Ədliyyə Nazirliyinin təmsil olunduğu Milli Əlaqələndirmə Şurasının fəaliyyətini qeyd edən nazir korrupsiyaya qarşı mübarizənin vacib hədəflərdən olduğunu, habelə Konvensiyanın implementasiyası ilə bağlı respublikamızda dövlətimizin başçısının siyasi iradəsinə uyğun olaraq həyata keçirilən qəti tədbirləri diqqətə çatdırıb, genişmiqyaslı qanunvericilik və institusional islahatlar barədə məlumat verib, bu sahədə ölkəmizin nailiyyətlərini, o cümlədən Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və dünyada böyük marağa səbəb olan Azərbaycan brendi "ASAN xidmət"in müsbət təcrübəsini vurğulayıb.

Eyni zamanda, məhkəmə-hüquq islahatlarına toxunularaq məhkəmə sisteminin müstəqilliyinin gücləndirilməsi, bu fəaliyyətdə şəffaflığın artırılması, beynəlxalq aləmdə təqdir olunan hakimlərin ən şəffaf seçim prosesi, informasiya texnologiyaları ilə təchiz olunmuş yeni məhkəmə infrastrukturunun yaradılması və elektron məhkəmənin tətbiqi üzrə görülən əməli tədbirlərin korrupsiyanın qarşısının alınmasına xidmət etdiyi bildirilib.

Nazir ölkəmizin səmərəli beynəlxalq antikorrupsiya əməkdaşlığını qeyd edərək bu sahədə beynəlxalq təşkilatlarla müxtəlif təşəbbüslərindən danışıb.

Çıxışda tədbir iştirakçılarının diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların müvafiq qətnamələrinə baxmayaraq, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğalına və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına xüsusilə cəlb olunub.

Sonra müzakirələr keçirilib. İştirakçılar tərəfindən ölkəmizdə həyata keçirilən islahatlara maraq göstərilərək bu sahədə dövlət dəstəyinin əhəmiyyəti xüsusi vurğulanıb. Müvafiq suallar cavablandırılarkən qeyd edilib ki, bütün bu islahatların təməlində və nailiyyətlərin qazanılmasında dövlətimizin güclü siyasi iradəsi dayanır.

İclaslarda Azərbaycan nümayəndə heyətinin üzvləri fəal iştirak ediblər. K.Əliyev çıxışında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və rəhbərlik etdiyi Baş İdarə tərəfindən görülən preventiv tədbirlərdən danışıb, bu işdə əsas vasitələrdən biri kimi tədrisin rolundan bəhs edib. O, bu sahədə beynəlxalq antikorrupsiya treninqləri, o cümlədən ölkəmizin BMT-nin Vyanadakı Ofisi, Beynəlxalq Prokurorlar Assosiasiyası və Avstriyada yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyası ilə səmərəli əlaqələrini vurğulayıb.

Yekunda Azərbaycan tərəfinin təklifləri nəzərə alınmaqla korrupsiyaya qarşı mübarizədə səylərin gücləndirilməsinə və antikorrupsiya qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına dair Bəyannamə qəbul olunub.

Səfər çərçivəsində bir sıra dövlətlərin ədliyyə, məhkəmə, prokurorluq və antikorrupsiya orqanlarının rəhbərləri, habelə beynəlxalq təşkilatların rəsmiləri ilə ikitərəfli görüşlər keçirilib, əməkdaşlığa dair faydalı danışıqlar və ölkəmiz üçün prioritet olan sahələr üzrə qarşılıqlı fəaliyyətin perspektivlərinə dair müzakirələr aparılıb.

Tədbirlərdə Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov iştirak edib.

AZƏRTAC

# Baş prokuror Şamaxıda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş prokuror Zakir Qaralov yanvarın 25-də Şamaxı Rayon Prokurorluğunun inzibati binasında Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Kürdəmir və Göyçay rayonlarından olan vətəndaşları qəbul edib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl Zakir Qaralov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda baş prokuror Zakir Qaralov bölgədə yaşayan 28 vətəndaşın müraciətini dinləyib. Qaldırılan məsələlər üzrə müraciətlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

AZƏRTAC

*Səməd Seyidov:*

# AŞPA-nın qış sessiyası bizim üçün uğurlu oldu

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası bizim üçün uğurlu oldu. Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri tam şəkildə təsdiqlənib. Sessiya müddətində nümayəndə heyətimiz öz işini həmişəki qaydada həyata keçirib. Nümayəndə heyətinin üzvləri AŞPA-nın vitse-prezidenti, ən böyük Sosialist qrupunun, eləcə də qurumun komitələrinin vitse-prezidenti vəzifələrinə seçiliblər.**

Bu fikirləri AŞPA-nın vitse-prezidenti, Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində söyləyib.

S.Seyidov qeyd edib ki, qış sessiyası çərçivəsində deputatlarımız müzakirələrdə fəal iştirak edib, çıxışları ilə bizi maraqlandıran məsələlərə mövqelərini bildiriblər. Deputatlarımız Avropa Şurasının baş katibi və Finlandiyanın Prezidentinə bizi maraqlandıran suallarla müraciət ediblər. Onlar cavablarında müsbət mövqe göstəriblər. Azərbaycana qarşı qərəzli mövqeyi ilə tanınan və hər sessiyada ölkəmizin imicini ləkələməyə çalışan Omtziq qurumun baş katibi tərəfindən yerinə oturdulub. Baş katib cavab verib ki, Azərbaycanla bağlı kiçik məsələlər siyasiləşdirilməməli və bundan sui-istifadə olunmamalıdır.

Finlandiyanın Prezidenti Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bildirib ki, bu münaqişənin həlli hamını düşündürməlidir. Azərbaycanın problemi bizə yaxşı tanışdır. Biz bu münaqişənin tezliklə sülh yolu ilə, diplomatik vasitələrlə həllində maraqlıyıq və Minsk qrupu çərçivəsində buna istənilən dəstəyi göstərməyə hazırıq. Azərbaycan-Türkiyə münasibətləri, Azərbaycan-Avropa əlaqələri bu sessiyada özünün ən yüksək səviyyədə olduğunu göstərdi. Amma təəssüf ki, bu qurumda ölkəmiz əleyhinə işləyən qüvvələr də var. Onlar yanvar sessiyası çərçivəsində ölkəmizə qarşı düşünülmüş, planlaşdırılmış mənfi tədbirlər nəzərdə tutmuşdular.

Azərbaycan Prezidentinin xarici siyasəti, bizə verdiyi tövsiyələr, ölkəmizdə gedən proseslər bizə kömək etdi, güc verdi. Azərbaycan hökumətinin, Milli Məclisin, nümayəndə heyətimizin birgə fəaliyyəti, beynəlxalq təşkilatlarla əlaqələr belə qüvvələrin məkrli planlarının həyata keçməsinin qarşısını aldı.

Azərbaycan bu sessiya ərzində istədiyi, düşündüyü fəaliyyəti reallaşdırdı. Nümayəndə heyətimizin fəaliyyəti nəticəsində ölkəmizlə bağlı mənfi fikirlərin, ona qarşı mənfi münasibətlərin azaldığını gördük, erməni lobbisinin düşündüyü planların gündəmdən çıxarılması istiqamətində uğura nail olduq. Bu sessiyanı, xüsusilə də nümayəndə heyətimizin fəaliyyətini yüksək qiymətləndirirəm. Birgə fəaliyyət həmişə uğurlara aparır, güc birlikdədir. Əminəm ki, gələn sessiyalarda bu uğurun daha yüksək nəticələrini görəcəyik.

AZƏRTAC

*Sergey Markov:*

# Azərbaycan multikulturalizm dəyərlərini inkişaf etdirən ölkə kimi məşhurdur

**Azərbaycan özünümaliyyələşdirmə sistemi yaratmağa nail olub. Bu ölkə öz layihələrinin, o cümlədən infrastruktur sahəsində layihələrin maliyyələşdirilməsini özü təmin edir və bu mənada heç kimdən asılı deyil.**

AZƏRTAC xəbər verir ki, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov bu fikirləri "Moskva-Baku" portalına müsahibəsində söyləyib. O qeyd edib ki, bu gün Azərbaycanda faktiki olaraq urbanistik inqilab gedir, köhnə Bakının yerində açıq səma altında memarlıq muzeyinə bənzəyən yeni möhtəşəm şəhər formalaşır. Bakı müasir urbanistik dünyanın incisidir.

S.Markov deyib: "Azərbaycan multikulturalizm dəyərlərini inkişaf etdirən ölkə və müxtəlif məzhəblərə etiqad bəsləyən xalqların nümayəndələrinin dinc yanaşı yaşaması nümunəsi kimi



məşhurdur. Dünyada multikulturalizmin böhran keçirdiyi şəraitdə Azərbaycan bu ideyanın, bu həyat modelinin drayverlərindən biri kimi, qlobal multikultural dünyanın formalaşmasına kömək edir".

Onun fikrincə, Azərbaycan İslam ənənələri ilə Avropa dəyərlərinin qovuşmasının gözəl nümunəsidir. Ekspert deyib: "Bakı Humanitar Forumu artıq çoxdan bəri müxtəlif mədəniyyətlərin nümayəndələrinin qarşılıqlı fəaliyyət göstərdiyi bir məkana çevrilib. Bakının ev sahibliyi etdiyi beynəlxalq tədbirlər - idman tarixində ilk Avropa oyunları, habelə İslam Həmrəylik Oyunları sayəsində Azərbaycan sivilizasiyaların qovuşduğu məkan kimi tanındı. Azərbaycanda mütəmadi olaraq ən müxtəlif sahələrdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi turizmin və müvafiq infrastrukturun inkişafı üçün çox yaxşı stimuldur. Bakıda möhtəşəm Heydər Əliyev Aeroportu tikilib. Ən yüksək səviyyəli otellər şəbəkəsi çoxlu sayda qonaqları və turistləri qəbul etməyə imkan verir".

AZƏRTAC

# Milli Məclisin regional məsələlər komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

**Yanvarın 25-də Milli Məclisin regional məsələlər komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, komitənin sədri Arif Rəhimzadə 2018-ci ilin payız sessiyasının yekunlarından danışıb. Bildirilib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, 16 məsələ müzakirə edilib, onlardan 14-ü qanun layihəsidir. Sessiya ərzində komitənin ünvanına daxil olmuş 86 təklif, ərizə və şikayətin 52-si araşdırılıb və lazımi tədbir görülməsi üçün müvafiq təşkilatlara göndərilib. Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

Sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub və təsdiqlənib.

İşlər planına "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda, Torpaq Məcəlləsində, "Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamədə, "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihələri daxildir.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycanda bələdiyyə aktlarının hüquqi ekspertizasına diqqət artırılıb. Ötən il bələdiyyə aktlarının 2200-dən çoxunun ləğv edilməsi və ya dəyişdirilməsi ilə bağlı təkliflər verilib. Bələdiyyələr bu təkliflərin qəbul edib, aktlarda düzəlişlər ediblər. Diqqətə çatdırılıb ki, doqquz bələdiyyə təklifləri icra etmədiyi üçün onlarla bağlı məhkəmədə iddia qaldırılıb. Bu iddialardan dördü baxılaraq təmin edilib, beş iş isə məhkəmələrin icraatındadır. Bildirilib ki, bələdiyyə qanunvericiliyinə əməl etməyən bələdiyyə sədrləri ilə bağlı inzibati tənbeh tədbirlərinin görülməsinə dair müəyyən dəyişiklik olunub.

Sonra deputatlar fikir və təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra məsələ səsə qoyularaq qəbul edilib.

AZƏRTAC

# Xəzər Siyasi Mərkəzi Qafqazda və Mərkəzi Asiyada mühüm infrastruktur obyektləri barədə hesabat dərc edib

**Vaşinqtondakı Xəzər Siyasi Mərkəzi yeni hesabat dərc edib. AZƏRTAC xəbər verir ki, bu sənəddə region ölkələrinin təhlükəsizliyi üçün xüsusi əhəmiyyət kəsb edən bəzi infrastruktur sistemlərinin - Xəzər regionunda elektrik təchizatı şəbəkəsinin, telekommunikasiya və informasiya sistemlərinin, habelə nəqliyyat yollarının spesifikası və problemləri ətraflı təsvir edilib. Gizli deyil ki, ictimaiyyət və biznes bu sistemlərin fasiləsiz və etibarlı işləməsinə güvənir.**

Xəzər regionunda, Mərkəzi Asiyada və Qafqazda enerji, nəqliyyat, informasiya və digər infrastruktur obyektlərinin tikintisi və yeniləşdirilməsi ilə bağlı, dəyəri milyardlarla ölçülən yeni iri layihələr həyata keçirilir. Çin, Mərkəzi və Cənubi Asiya ilə Qərbi bağlayan Yeni İpək Yolu, "Bir kəmər, bir yol" layihəsi, Lazurit dəhlizi və digər layihələr genişləndikcə, Birləşmiş Ştatların və Qərbi Avropanın bu sistemlərin bütövlüyünün qorunmasına marağı artır.

Xəzər Siyasi Mərkəzinin Qafqazda və Mər-


PROTECTION AND MODERNIZATION OF CRITICAL INFRASTRUCTURE – KEY TO PROSPERITY AND SECURITY 4

PROTECTION AND MODERNIZATION OF CRITICAL INFRASTRUCTURE – KEY TO PROSPERITY AND SECURITY

The protection and modernization of existing infrastructure systems can be just as essential as their construction. Moreover, governments and the private sector must work together on protecting critical infrastructure systems, just as they should on their inception. The Greater Caspian Region's growing importance in connecting East and South Asia with Western Europe and the Mediterranean basin increases this need and makes it an important factor as well in U.S. engagement in the region.

Critical infrastructure systems, for example electrical grids or internet/telecommunications networks, are essential for the safety, security, and well-being of a country's citizens. Citizens also hold governments and companies responsible for any failures of these systems, whether breaches of their integrity or a shut-down in services.

These systems are often interconnected and mutually dependent, thus efforts to protect them require attention to these linkages. A breakdown in a country or region's communication system may

kəzi Asiyada mühüm infrastruktur obyektlərinin modernləşdirilməsinə və qorunmasına həsr edilmiş yeni tədqiqatında elektrik təchizatı şəbəkələrinin, neft və qaz hasilatı və nəqli obyektlərinin, genişlənməkdə olan yerüstü nəqliyyat sistemlərinin, habelə internet şəbəkəsinin və informasiya texnologiyalarının üzləşdiyi təhdidlər nəzərdən keçirilir və müzakirə edilir. Tədqiqat müəlliflərinin tövsiyələri təhdidlərin aşkar olunması və qərarlar qəbul edilməsi üçün biznes, hökumətlər və tədqiqat institutları arasında qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan uzunmüddətli münasibətlərin inkişaf etdirilməsinin, regional əməkdaşlığı genişləndirməyin, mühüm infrastruktur obyektlərinin müdafiəsini region ölkələrinin, ABŞ-ın və digər qərbli tərəfdaşların əsas vəzifələrindən biri hesab etməyin zəruriliyi üzərində cəmləşib.

Hesabatın tam mətni ilə tanış olmaq üçün bu linkə müraciət edə bilərsiniz: http://www.caspianpolicy.org/wp-content/uploads/2019/01/PROTECTION-AND-MODERNIZATION-OF-CRITICAL-INFRASTRUCTURE_-KEY-TO-PROSPERITY-AND-SECURITY.pdf

AZƏRTAC

# Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib

**Yanvarın 25-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda mərkəzi aparatın işçilərinin və ərazi hərbi prokurorlarının iştirakı ilə 2018-ci ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti, bununla əlaqədar Respublika Hərbi Prokurorluğunun struktur qurumlarında və ərazi hərbi prokurorluqlarında keçirilmiş əməliyyat müşavirələrinin nəticələri və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**





AZƏRTAC xəbər verir ki, kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli Lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasətini zamanın tələblərinə uyğun olaraq ən yüksək səviyyədə davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı tədbirlərin nəticəsində 2018-ci ildə də dövlətimizin daha da qüdrətləndiyini, xalqımızın maddi və sosial rifah halının daha da yaxşılaşdırıldığını, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndiyini diqqətə çatdırıb.

Hərbi prokuror bildirib ki, 2018-ci il bir sıra mühüm hadisələrlə yadda qalıb. Həmin hadisələrin ən önəmlilərindən biri "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Prezident İlham Əliyevin 2017-ci il 16 may tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin dövlət səviyyəsində qeyd edilməsi olub. Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi və dövlətimizin başçısının "...Bu gün Cümhuriyyətin qurucuları Azərbaycanı görsələr, fəxr edərdilər. Biz də Cümhuriyyətin qurucuları ilə fəxr edirik..." sözləri qədim və zəngin dövlətçilik tariximizə bəslənilən böyük ehtiramın növbəti göstəricisidir.

Xanlar Vəliyev vurğulayıb ki, ötən il ölkəmizdə baş verən ən mühüm siyasi hadisə və xalqımızın əldə etdiyi ən böyük uğur aprelin 11-də demokratik, şəffaf və ədalətli şəkildə keçirilən növbədənkənar prezident seçkilərində zəngin biliyə, yüksək elmi təfəkkürə, möhkəm siyasi iradəyə, sarsılmaz qətiyyətə və mükəmməl rəhbərlik qabiliyyətinə malik şəxsiyyətin - İlham Əliyevin xalqın böyük əksəriyyətinin inam və etimadını qazanaraq 86 faiz səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi olub.

Qeyd edilib ki, 2018-ci il, həmçinin xalqımızın və dövlətçiliyimizin taleyində müstəsna rolu və misilsiz xidmətləri olan, müasir müstəqil Azərbaycanın qurucusu və onun müstəqilliyinin memarı, ölkəmizi davamlı inkişaf yoluna çıxarmaqla dünya birliyinə qovuşdurmuş əvəzsiz tarixi şəxsiyyət-ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinin respublikamızda, eləcə də onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd edilməklə, silsilə tədbirlərin keçirilməsi və əbədiyaşar liderimizin xatirəsinin dərin ehtiramla anılması ilə yadda qalıb.

Bildirilib ki, ötən il baş verən digər mühüm hadisələr iyunun 26-da və sentyabrın 15-də Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının və Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 100 illiyi münasibətilə təntənəli hərbi paradların keçirilməsi olub. Həmin paradlarda hərbi potensialımızın bir hissəsinin nümayişi Silahlı Qüvvələrimizin, o cümlədən hərbçilərimizin qüdrətini, peşəkarlığını, yüksək döyüş ruhunu, torpaqlarımızı azad etməyə hər an hazır olduğunu bir daha göstərdi. 2016-cı ilin şərəfli aprel döyüşlərini xatırladan hərbi prokuror bildirib ki, ötən ilin mayında da atəşkəsi ciddi şəkildə pozaraq öz işğalçı niyyətini davam etdirmək istəyən düşməni növbəti dəfə uğursuzluğa düçar edən rəşadətli ordumuz Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi də daxil olmaqla 11 min hektardan artıq ərazini azad edərək dövlət sərhədi boyunca əlverişli əraziləri nəzarətinə götürüb. Gələcək qələbələrimizin müjdəsi hesab edilən bu zəfərlər nəticəsində ərazilərimizin tədricən işğaldan azad edilməsi təcavüzkar Ermənistanda böyük rezonans doğurmaqla, torpaqlarımızın tezliklə düşmən tapdağından azad olunacağına xalqımızın ümidlərini artırıb, dövlət və ordu quruculuğu sahəsində Prezidentimiz tərəfindən həyata keçirilən ardıcıl tədbirlərin səmərəli və əhəmiyyətli olduğunu bir daha təsdiqləyib.

Diqqətə çatdırılıb ki, 2018-ci il oktyabrın 1-də, həmçinin yarandığı vaxtdan bəri bütün fəaliyyəti prosesində Azərbaycan xalqına və dövlətinə sıx bağlılığı, sədaqətli xidməti ilə seçilən, ölkəmizdə ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının qorunmasında əhəmiyyətli rol oynayan Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyinin keçirilməsi də əlamətdar hadisələrdən olub.

Hərbi prokuror xüsusi vurğulayıb ki, ölkəmizin hərtərəfli və sürətli inkişafında müstəsna rolu olan Birinci vitse-prezident Mehriban Əliyevanın bütün sahələrə, xüsusən Azərbaycan elminə, mədəniyyətinə, təhsilinə, səhiyyəsinə göstərdiyi qayğı və diqqəti ölçüyəgəlməzdir. Birinci vitse-prezident milli-mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği istiqamətində gördüyü böyük işlər, çoxşaxəli zəngin fəaliyyəti ilə dövlətçiliyimizin qüdrətlənməsinə töhfələr verməkdə davam edir. Xanım Mehriban Əliyevanın tükənməz xeyirxah əməlləri, davranışı, mənsub olduğu xalqın milli-mənəvi dəyərlərinə sadiqliyi, millətinə, dövlətinə sədaqəti və əsl Azərbaycan xanımına xas digər nümunəvi xüsusiyyətləri, eləcə də bəşər mədəniyyətinin inkişafı istiqamətində gördüyü böyük işlər və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər, ona yalnız Azərbaycan xalqının deyil, bir sıra ölkələrin vətəndaşlarının da sonsuz məhəbbətini qazandırıb.

Dövlətimizin hərtərəfli inkişafının Silahlı Qüvvələrin fəaliyyətinə də müsbət təsir etdiyini bildirən hərbi prokuror xüsusi vurğulayıb ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuzun maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Bunun nəticəsində ordunun döyüş qabiliyyəti daha da yüksəlib, şəxsi heyətin nizam-intizamının artırılması istiqamətində uğurlar əldə olunub. Azərbaycanda ordu quruculuğunun davam etdiyi yeni mərhələdə Hərbi Prokurorluq orqanlarının fəaliyyəti də işin səmərəliliyinin artırılmasına, Silahlı Qüvvələrdə hərbi intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, eyni zamanda, ordu quruculuğuna mənfi təsir edə biləcək nöqsanların və qanun pozuntularının vaxtında aşkarlanaraq aradan qaldırılmasına, bununla əlaqədar qanunamüvafiq zəruri tədbirlərin görülməsinə yönəldilib.

Xanlar Vəliyev bildirib ki, ötən il Silahlı Qüvvələrdə cinayətkarlığa və digər hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində görülən işlər də səmərəli olub, o cümlədən ibtidai istintaqın keyfiyyəti də artırılıb. Belə ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də istintaqçıların peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin 99,2 faizi açılıb. 2017-ci illə müqayisədə icraatına xitam verilmiş və icraatı dayandırılmış cinayət işlərinin sayı azalıb, istintaqı tamamlanaraq məhkəmələrə göndərilmiş cinayət işləri üzrə ittiham irəli sürülmüş təqsirləndirilən şəxslərdən bəraət alan olmayıb. Həmçinin məhkəmə baxışları zamanı təqsirləndirilən şəxslərin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edilmədiyindən, başqa ittiham irəli sürülməsi məsələsinə baxılması üçün Cinayət Prosessual Məcəllənin 318.2-ci maddəsinin tələblərinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılan cinayət işləri olmayıb.

Qeyd olunub ki, 2017-ci illə müqayisədə ötən il törədilmiş cinayətlər 12,6 faiz, hərbi xidmət əleyhinə cinayətlər 4 faiz, qeyri-hərbi cinayətlər 34,3 faiz; böyük ictimai təhlükə törətməyən cinayətlər 4,6 faiz, az ağır cinayətlər 2,8 faiz, xüsusilə ağır cinayətlər 48,6 faiz azalıb. Azalma xəstəlik nəticəsində ölüm hallarında 40 faiz, düşmən tərəfindən açılan atəş nəticəsində ölüm hallarında 64,7 faiz; qeydə alınmış korrupsiya xarakterli cinayətlərdə 24,7 faiz, korrupsiya ilə əlaqədar dələduzluq cinayətlərində 43,6 faiz, rüşvət alma və rüşvətvermə cinayətlərində 15,5 faiz təşkil edib.

Xüsusi vurğulanıb ki, Silahlı Qüvvələrdə baş vermiş və səbəbindən asılı olmayaraq istənilən ölüm faktı üzrə cinayət işi başlanılıb. Bu qəbildən olan hər bir cinayət işinin istintaqı Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülüb, iş üzrə hərtərəfli, tam, obyektiv və vaxtında ibtidai araşdırmanın aparılması, təqsirkar şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, eləcə də hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin olunub. Eyni zamanda, hər bir cinayət işi üzrə ibtidai araşdırmanın aparılması zamanı cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait müəyyən edilməklə, müvafiq vəzifəli şəxsin ünvanına belə halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərilərək həmin halların qarşısının alınması, həmçinin iş üzrə əməllərində cinayət tərkibi olmayan, lakin başqa hüquq pozuntusuna yol vermiş şəxslərin digər müvafiq hüquqi məsuliyyətə cəlb edilməsi təmin edilib. Bununla yanaşı, Silahlı Qüvvələrdə ayrı-ayrı, xüsusən də belə xarakterli cinayətlərin qarşısının alınması məqsədilə, hər il olduğu kimi, ötən il də məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək müxtəlif vaxtlarda Respublika Hərbi Prokurorluğunun kollegiya iclaslarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə olunub. Bu kimi cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair kollegiyaların qərarlarına əsasən, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və başqa struktur qurumların rəhbərlərinə məlumat məktubları, silahlı birləşmələrin komandanlıqlarına təqdimatlar, ərazi hərbi prokurorlarına icmal-məktublar göndərilib. Nəticədə 2017-ci illə müqayisədə ötən il törədilmiş qəsdən adamöldürmə cinayətləri 61,5 faiz, intihar hadisələri 23,1 faiz azalıb.

Hərbi prokuror bildirib ki, cinayət hadisələrinin sayının azalmasında Hərbi Prokurorluq orqanlarının səmərəli fəaliyyətinin, eləcə də Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlarla yaradılmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin, həmçinin hələ ilin əvvəlindən planlaşdırılaraq mütəmadi həyata keçirilmiş birgə tədbirlərin böyük əhəmiyyəti olub. Azərbaycan ordusunda və başqa silahlı birləşmələrdə insan hüquq və azadlıqlarına riayət olunmasını, qanunçuluğun və hüquq qaydasının qorunmasını təmin etmək məqsədilə 2018-ci ildə də Hərbi Prokurorluğu Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və digər hərbi qurumlarla birgə hazırladığı "Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə dair", "Cinayətkarlığa qarşı mübarizəyə dair", "Cinayət hadisələrinin qarşısının alınmasına dair", "Hərbi qulluqçularda vətənpərvərlik hisslərinin gücləndirilməsinə dair" və sair mövzular üzrə tədbirlər planları əsasında adıçəkilən qurumların yüksəkvəzifəli əməkdaşlarının iştirakı ilə səmərəli işlər görülüb, hərbi qulluqçuların fərdi qəbullarının mütəmadi keçirilməsi təmin olunub. Eyni zamanda, milli və rəsmi dövlət bayramlarında, digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçular və valideynlərinin iştirakı ilə bayram mərasimləri, o cümlədən konsertlər təşkil edilib və xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunub. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Sadalananlarla yanaşı, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsini və bununla əlaqədar görülən işlərin səmərəliliyini artırmaq məqsədilə müxtəlif istiqamətlər üzrə bir neçə metodiki tövsiyələr və digər maarifləndirici vəsaitlər hazırlanıb və hərbi qulluqçulara çatdırılıb. Belə ki, hərbi qulluqçuların qəbulu işini daha da təkmilləşdirmək, o cümlədən onların qayğı və problemləri ilə yerində maraqlanmaq, rastlaşdıqları çətinliklər barədə zamanında məlumat əldə etmək, eləcə də müraciətlərin operativliyini artırmaq məqsədilə "Ərazi hərbi prokurorluqlarının əməkdaşları tərəfindən hərbi qulluqçuların bilavasitə hərbi hissələrdə qəbulunun təşkili və keçirilməsinə dair", hərbi hissələrdə intihara meyilli hərbi qulluqçuların, belə şəxslərə mənfi təsir edə biləcək halların, onlarda psixi-emosional gərginlik yaradacaq amillərin vaxtında aşkarlanması və baş verə biləcək hadisələrin ən qısa zamanda qarşısının alınması məqsədilə preventiv və profilaktik tədbirlərin icrasını nəzərdə tutan "Silahlı Qüvvələrdə suisid hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin həyata keçirilməsinə dair" metodiki tövsiyələr hazırlanıb. Həmin metodik tövsiyələr istifadə üçün ərazi hərbi prokurorluqlarına, Silahlı Qüvvələrin rəhbər heyətlərinə, birləşmə komandirlərinə, həmçinin briqada və dəstələrin komandir və şəxsi heyətlə iş aparan komandir müavinlərinə, eləcə də digər əlaqədar şəxslərə çatdırılıb.

Qeyd edilib ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli iş aparılıb, vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, buna əvvəlkindən daha az vaxt sərf olunması, müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlər görülüb. Ötən il hərbi prokurorluq orqanlarında vətəndaşların 2185 müraciətinə baxılıb və 1015 vətəndaş mərkəzi aparatda qəbulda edilib.

Kollegiya iclasında qeyd olunub ki, 2018-ci ildə prokurorluq orqanlarında kadr siyasətinin həyata keçirilməsi istiqamətində məqsədyönlü tədbirlər davam etdirilib, o cümlədən kadrların şəffaf və obyektiv meyarlar əsasında seçilib yerləşdirilməsi və vəzifədə irəli çəkilməsi üçün zəruri tədbirlər görülüb.

Bildirilib ki, hesabat dövründə dövlət ittihamının müdafiəsi şöbəsi tərəfindən birinci instansiya hərbi məhkəmələrinin hökm və qərarlarından verilmiş protestlərin 45 faizi təmin olun, o cümlədən 2 şəxs barəsində əsassız olaraq çıxarılmış iki bəraət hökmündən verilmiş apellyasiya protestləri də təmin edilərək ittiham hökmləri verilib.

Xanlar Vəliyev işğal olunmuş ərazilərimizdə törədilmiş bütün cinayətlərin, o cümlədən sülh və insanlıq əleyhinə olan cinayətlərin, müharibə, terrorçuluq cinayətlərinin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyənləşdirilib cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə Hərbi Prokurorluqda aparılan istintaq barədə müşavirə iştirakçılarına məlumat verib. Bildirib ki, həmin cinayət işləri üzrə hazırda intensiv istintaq-əməliyyat tədbirləri yerinə yetirilir. Ötən il Xüsusi istintaq şöbəsində icraatda olmuş cinayət işləri üzrə bir təqsirləndirilən şəxs K.A.Ğazaryana Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 29,120.2.1-ci 29,120.2.7-ci, 29,120.2.12-ci, 214.2.1-ci, 214.2.3-cü və digər maddələri ilə ittiham elan edilib və Qazax Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib. Cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Gəncə Ağır cinayətlər məhkəməsinə göndərilib.

Qeyd olunub ki, 2018-ci ildə Memorial Soyqırımı Muzeyinin fəaliyyəti ilə bağlı müəyyən işlər görülüb, Azərbaycan xalqına qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlər, o cümlədən xalqımızın tarixi torpaqlarından zorla çıxarılması üçün həyata keçirilmiş deportasiya siyasəti, azərbaycanlılara qarşı xüsusi amansızlıqla və qəddarlıqla törədilən kütləvi qırğınlar barədə obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və ətraflı məlumatların verilməsi, gənclərin və hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, vətəndaşlarımızda milli ruhun daha da yüksəldilməsi məqsədilə müxtəlif dövlət qurumlarına və ictimai təşkilatlara məktublar göndərilib. Nəticədə 4 mindən artıq şəxsin muzeyə ekskursiyası təmin olunub. Yarandığı vaxtdan indiyədək muzeyi ümumiyyətlə, 20 minə yaxın şəxs ziyarət edib.

Kollegiya iclasında görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunub. İbtidai istintaq və təhqiqat üzərində prosessual rəhbərliyin həyata keçirilməsi, baş vermiş cinayət hadisələri nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş maddi ziyanın ödənilməsi, dövlət ittihamının müdafiəsi, müraciətlərə baxılması və vətəndaşların qəbulu ilə əlaqədar işin təşkilində yol verilmiş nöqsanlar və çatışmazlıqlar ciddi tənqid olunub, onların aradan qaldırılması üçün konkret göstərişlər verilib.

Xanlar Vəliyev Azərbaycan Prezidentinin "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" 2009-cu il 22 iyun tarixli Fərmanında və 2016-cı il 27 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda rüşvətxorluğa və korrupsiyaya qarşı daha da ciddi mübarizə aparılması, ictimai nəzarətin gücləndirilməsi ilə əlaqədar prokurorluq orqanlarının üzərinə çox böyük məsuliyyət qoyulduğunu qeyd edərək bildirilib ki, bu qəbildən olan cinayətlərin aşkarlanması istiqamətində struktur qurumları tərəfindən bir sıra işlər görülsə də, bu sahədə tədbirlərin səmərəliliyi və intensivliyi daha da artırılmalıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət orqanlarının fəaliyyətinin yaxşılaşdırılması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin daha da təkmilləşdirilməsi barədə tövsiyə və tapşırıqları bir daha müşavirə iştirakçılarının diqqətinə çatdırılıb, onlara əməl olunması hər bir əməkdaşdan ciddi tələb edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında respublika hərbi prokurorunun müavinləri, ədliyyə general-mayoru Şəfahət İmranov və ədliyyə general-mayoru Rasim Kazımov, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru, ədliyyə general-mayoru Yaşar Həsənov, Silahlı Qüvvələrdə qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin rəisi, ədliyyə polkovniki Toğrul Hüseynov, Bakı hərbi prokuroru, ədliyyə polkovniki İmran Əhmədov, Sumqayıt hərbi prokuroru, ədliyyə polkovniki Zöhrab Kazımov və Qarabağ hərbi prokuroru, ədliyyə polkovniki Fərid Şükürov çıxışlarında hesabat dövründə görülmüş işlərdən danışıb, nöqsanların aradan qaldırılması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığa qarşı səmərəli mübarizənin təmin olunması ilə əlaqədar hərbi prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görüləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Respublika hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev kollegiya iclasına yekun vuraraq bildirib ki, hərbi prokurorluq orqanları Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi yüksək qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, Silahlı Qüvvələrdə intizamın daha da möhkəmləndirilməsini, insan və vətəndaş hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, habelə hüquq pozuntularına, o cümlədən cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirlərin görülməsini bundan sonra da davam etdirəcək.

**AZƏRTAC**

*Baş nazir:*

# İspaniya-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir

**Madrid şəhərində təşkil olunmuş V Turizm İnnovasiyaları Forumu çərçivəsində Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri, eyni zamanda, Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Anar Məhərrəmov İspaniyanın Baş naziri Pedro Sançesla görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə turizm sektorunun ölkəmizdə prioritet sahələrdən biri olduğu qeyd edilib, Azərbaycanın sözügedən sahədə beynəlxalq və regional əməkdaşlığa mühüm önəm verdiyi, bu mənada cari ildə Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasının Bakıda keçirilməsinin təsadüfi olmadığı bildirilib.

Səfir Anar Məhərrəmov ölkəmizin İspaniya ilə əlaqələrinin daha da inkişaf etməsində maraqlı olduğunu deyib, bu baxımdan qarşılıqlı yüksək səviyyəli səfərlərin vacibliyini qeyd edib.

Öz növbəsində, Pedro Sançes İspaniya ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir çox məsələlərdə mövqelərinin üst-üstə düşdüyünü məmnunluqla qeyd edib.

İspaniyanın dünyanın ən çox turist qəbul edən ölkələrindən biri olduğunu qeyd edən Baş nazir Pedro Sançes Azərbaycanda da turizm sektorunun sürətlə inkişaf etdiyini nəzərə alaraq bu istiqamətdə ölkəsinin müsbət təcrübəsinin Azərbaycanla bölüşməyə hazır olduğunu bildirib.

Sonda Pedro Sançes Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasının Bakıda uğurla keçiriləcəyinə inamını ifadə edib.

**AZƏRTAC**

# Azərbaycan "FİTUR-2019" Beynəlxalq turizm sərgisində uğurla təmsil olunur

**Madriddə növbəti "FİTUR" beynəlxalq turizm sərgisi öz işinə başlayıb. Artıq 39 ildir ki, təşkil olunan bu mötəbər beynəlxalq turizm sərgisi adıçəkilən sektorda fəaliyyət göstərən mütəxəssislər üçün qlobal görüşmə nöqtəsi hesab olunur və İbero-Amerika bazarlarına çıxış baxımından əhəmiyyətli rola malikdir.**

Bu il keçirilən "FİTUR-2019" beynəlxalq turizm sərgisi zamanı iştirakçıların sayında yeni rekord müşahidə edilib: 165 ölkə və regiondan 10 min 487 şirkət tədbirdə iştirak etmək üçün qeydiyyatdan keçib.

"FİTUR" beynəlxalq turizm sərgisində ölkəmiz Azərbaycan Dövlət Turizm Agentliyinin təşkilatçılığı və ölkəmizin İspaniya Krallığındakı səfirliyinin dəstəyi ilə uğurla təmsil olunur. Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın yeni turizm brendi ("Bir daha bax" ("Take another look") şüarı və brendin mahiyyətini özündə tərənnüm etdirən loqo) altında stendlərimizdə ölkəmizin turizm potensialı, sözügedən sektorun inkişafı, müasir texnologiyaların tətbiqi, habelə mövcud turizm infrastrukturu və bu sahədə təklif olunan xidmətlər barədə videoçarxlar, məlumat kitabçaları, broşürlər, nəfis tərtibata malik təbliğat materialları sərgi iştirakçılarına təqdim olunur.

Milli stenddə, həmçinin böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə səfirlik tərəfindən çap etdirilmiş, İspaniyada istifadə edilən xüsusi poçt markaları, ispan dilində Nəsiminin yaradıcılığını əks etdirən məlumat kitabçaları, həmçinin Azərbaycanın qədim xalçaçılıq ənənələrini ehtiva edən təbliğat materialları nümayiş etdirilir. Tədbir zamanı Azərbaycan pavilyonu sərgi iştirakçılarının böyük marağına səbəb olub.

AZƏRTAC-a müsahibəsində Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib: "FİTUR-2019" sərgisində Azərbaycan ilk dəfə olaraq "Bir daha bax" turizm brendi ilə təqdim olunur. Bu brend Latın Amerikasının zəngin tarixə, mədəniyyətə, qonaqpərvərliyi özündə tərənnüm etdirən milli mətbəxə malik ölkəmiz barədə təəssüratlarını yeniləyəcək. Bu gün sərginin açılış mərasimi çərçivəsində mənim İspaniya Kralı VI Felipe ilə görüşüm oldu. Görüşdə kral turizm sənayesinin möhtəşəm tədbirində ispan turistləri üçün böyük əhəmiyyət kəsb edən Azərbaycanın iştirak etməsindən məmnun olduğunu bildirdi. Kral sərginin işində iştiraka görə hamıya uğurlar arzuladı.




Sərgidə iştirak edən Ermənistan tərəfi növbəti dəfə təxribatlara əl ataraq, erməni şirkətlərinə məxsus stendlərdə işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma qurumun təbliğinə yönəlmiş müxtəlif məlumat və xəritələri üstüörtülü şəkildə nümayiş etdirməyə cəhd etmişdir. Dövlət Turizm Agentliyi və ölkəmizin İspaniya Krallığındakı səfirliyi tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilərək, "FİTUR" beynəlxalq turizm sərgisinin əsas təşkilatçısı kimi çıxış edən "İFEMA"nın İcraiyyə Komitəsinin prezidenti Klemente Qonsales Soler ilə dərhal görüş keçirilib. Görüşdə Ermənistan tərəfinin təxribatının yolverilməzliyi, "FİTUR" beynəlxalq turizm sərgisi zamanı bu cür əməllərə əl atılmasının "FİTUR"un əsas məqsədi olan əməkdaşlıq və turizmin davamlı inkişafına mənfi təsir göstərdiyi, eyni zamanda, Ermənistanın növbəti dəfə beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə məhəl qoymadan həyata keçirdiyi təxribatın "FİTUR"un "Bələdçi kitabçası"na birbaşa zidd olduğu diqqətə çatdırılıb. Deyilənlərin sübutu kimi Ermənistan şirkətlərinin stendlərindən əldə olunmuş, üstüörtülü şəkildə paylanan broşürlər əyani şəkildə K.Qonsales Solerə təqdim edilib.

"İFEMA"nın İcraiyyə Komitəsinin prezidenti K.Qonsales beynəlxalq sərgidə belə bir xoşagəlməz faktın baş verməsindən təəssüfləndiyini bildirib, bu cür təxribatların "FİTUR" beynəlxalq turizm sərgisinin işinə kölgə salmaq niyyəti daşıdığını qeyd edərək, məsələ ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görüləcəyini, Ermənistan şirkətlərinə bu cür təxribatyönümlü broşürlərin paylanmasına görə ciddi xəbərdarlıq edilərək, onların dərhal stendlərdən yığışdırılmasına dair göstəriş verib.

Keçirilən görüşün və görülən digər təxirəsalınmaz tədbirlərin nəticəsi olaraq, Ermənistan şirkətləri tərəfindən təxribatyönümlü materialların yayılmasının qarşısı alınıb, onlar stendlərdən yığışdırılıb, bu halın bir daha təkrar olunacağı təqdirdə, həmin stendlərin bağlanılacağına dair "İFEMA"nın İcraiyyə Komitəsi tərəfindən Ermənistan şirkətlərinə şiddətli xəbərdarlıq edilib.

"FİTUR-2019" beynəlxalq turizm sərgisi öz işini yanvarın 27-dək davam etdirəcək.

**AZƏRTAC**

# Qazaxda daha bir körpələr evi-uşaq bağçasının açılışı

Qazaxda körpələrə qayğı daim rayon rəhbərliyinin diqqət mərkəzindədir. Respublika Prezidenti cənab İlham Əliyevin regionlarda uşaq bağçalarının tikintisi ilə bağlı imzaladığı 12 fevral 2018-ci il tarixli Sərəncamı yola saldığımız ildə də Qazaxda uğurla icra olunmuşdur. Dövlətimizin uşaqlara olan sonsuz diqqətinin nəticəsidir ki, bu gün Qazaxda fəaliyyət göstərən uşaq bağçalarının 70 faizindən çoxu ən müasir standartlar səviyyəsindədir.



Ötən il 6 saylı bağçanın da əsaslı şəkildə yenidən qurulmasına başlanılıb, bu günlərdə isə əsaslı şəkildə yenidən qurulan həmin körpələr evi-uşaq bağçası körpələrin istifadəsinə verilib.

Rayon rəhbəri Rəcəb Babaşov açılış mərasimində çıxış edərək yeni bağçanın istifadəyə verilməsi münasibətilə körpələri, valideynləri və bağçanın kollektivini təbrik edib, xoş arzularını çatdırıb. İcra başçısı bildirib ki, bu gün ölkəmizdə respublika Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən körpələrə hər cür diqqət və qayğı göstərilir. Ölkə başçısının bu sahədə həyata keçirdiyi uğurlu siyasət respublikamızın bütün bölgələrində, o cümlədən Qazaxda uğurla icra olunur. Rəcəb Babaşov diqqətə çatdırıb ki, təkcə 2018-ci ildə istifadəyə verilən 5 bağça - Quşçu Ayrım, Bala Cəfərli, Canalı, şəhər 2 və 3 saylı uşaq bağçaları tam müasir tələblərə cavab verən bağçalar səviyyəsindədir. Yaradılan yüksək şərait və təchizat böyük şəhərlərdə olan bağçalardan heç də geri qalmır.

Tədbirdə çıxış edən qonaqlardan Qazax Rayon Maliyyə İdarəsinin rəisi Novruz Abdullayev, Uşaq Xəstəxanasının baş həkimi Üzeyir Vəliyev, ötən il əsaslı şəkildə təmir olunan İkinci Şıxlı kənd 2 saylı kənd körpələr evi-uşaq bağçasının müdiri Lalə Qurbanova və başqaları bu əlamətdar hadisəni dövlətimizin xalqın gələcəyinə olan qayğısının göstəricisi kimi səciyyələndirdilər. Yeni istifadəyə verilən şəhər 6 saylı körpələr evi-uşaq bağçasının müdiri Lalə Məmmədli çıxış edərək onlar üçün yaradılan yüksək şəraitə və sonsuz qayğıya görə rayon rəhbərliyinə kollektiv adından minnətdarlığını çatdırıb. Bundan sonra daha da məsuliyyətlə çalışacaqlarını və onlara göstərilən etimadı daim doğruldacaqlarını bildirib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Dövlət qayğısı uğurların təminatıdır

Son on beş il ərzində Azərbaycanda səhiyyə sisteminin daha da təkmilləşdirilməsi, səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində göstərilən dövlət qayğısı öz müsbət nəticələrini verməkdədir. Ölkə vətəndaşlarının sağlamlığına hesablanan bütün bu addımlar dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Bu gün ölkəmiz dünya miqyasında əhalinin sosial qayğılarına ən çox önəm verən ölkələr sırasında qabaqcıl yerlərdən birini tutur. Ölkə Prezidenti cənab İlham Əliyev dəfələrlə vurğulamışdır ki, **"sosial məsələlər arasında səhiyyə sisteminin inkişafı xüsusi yer tutur. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır və hər bir insan üçün onun sağlamlığı, onun yaxınlarının sağlamlığı xüsusi əhəmiyyət daşıyır. Biz çalışırıq və çalışacağıq ki, bu sahədə bütün lazımi tədbirləri görək. Onu da bildirməliyəm ki, təkcə son 15 il ərzində ölkəmizdə 600-dən çox xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Ölkəmizin hər bir şəhərində və ya onların mütləq əksəriyyətində müasir xəstəxanalar artıq tikilib və bir neçə şəhərdə tikinti işləri davam edir. Yaxın gələcəkdə Azərbaycanda elə bir şəhər olmayacaq ki, orada ən müasir tibb mərkəzi olmasın".**

Məlumdur ki, ölkəmizdə Heydər Əliyev Fondu da sosial sahədə həyata keçirilən dövlət siyasətinə olduqca dəyərli töhfələr verməkdədir. Fəaliyyət göstərdiyi bütün dövrlərdə müxtəlif təyinatlı tibb ocaqlarının - Diaqnostika mərkəzlərinin, poliklinikaların, reabilitasiya ocaqlarının tikilib istifadəyə verilməsi, müasir, dünya standartlarına uyğun ən son avadanlıqlarla təmin olunması həyata keçirilmişdir.

Ölkəmizin bütün bölgələrini əhatə edən bu sosial tədbirlər qədim tarixə malik Şəkidə də hiss olunmaqdadır.

Son on beş il ərzində rayonda bir sıra müasir səhiyyə ocaqları inşa edilmiş, tibb müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmişdir.

Bu illər ərzində inşa edilmiş və cənab Prezidentimiz İlham Əliyevin açılışında iştirak etdiyi, tibbin son nailiyyətləri ilə təchiz olunmuş 100 çarpayılıq Şəki Mərkəzi Rayon Xəstəxanası bölgədə ən müasir və yaraşığı ilə göz oxşayan səhiyyə ocaqlarından biridir.

Əsas binası altı korpusdan ibarət olan tibb ocağının birinci və ikinci korpusları üçmərtəbəli, üçüncü və dördüncü korpusları ikimərtəbəli, digər iki korpus isə beşmərtəbəlidir.

Xəstəxanada təcili tibbi yardım, onkoloji xəstəliklər, reanimasiya, cərrahiyyə, göz xəstəlikləri, diaqnostika, laboratoriya, poliklinika şöbələri fəaliyyət göstərir. Tibbin müasir texnologiyalarının tətbiq olunduğu bu səhiyyə ocağında əhalinin sağlamlığı keşiyində 300-dən artıq həkim və tibb işçisi çalışır. Onu da qeyd edək ki, xəstəxananın bütün şöbələrində quraşdırılmış avadanlıqlarla - ultrasəslə müayinə, anesteziya avadanlığı, hemodializ, rentgenoqrafiya, kompüter-tomoqrafiya, süni nəfəs aparatları, 4-D ultrasəslə müayinə aparatı və s. tibb elminin ən son nailiyyətlərinə cavab verir.



Bu gün Şəki Mərkəzi Rayon Xəstəxanasına təcrübəli səhiyyə təşkilatçısı, bacarıqlı həkim Elçin Əmirov rəhbərlik edir. Onunla söhbət zamanı öyrəndik ki, son illərdə göstərilən dövlət qayğısı nəticəsində rayonun mərkəzində və həmçinin kəndlərdə bir çox səhiyyə ocaqları inşa edilərək əhalinin istifadəsinə verilmişdir. Baş Göynük və Aşağı Göynük kənd xəstəxanalarının tikintisi başa çatdıralaraq təhvil verilmiş, Bideyiz kənd həkim məntəqəsi istifadəyə verilmişdir.

Həmçinin, rayon mərkəzindəki Psixiatriya xəstəxanasında əsaslı, Birləşmiş Uşaq Xəstəxanasında, Şəki MRX-nin əsəb-kardiologiya şöbəsində cari təmir işləri aparılmışdır.

Baş həkimlə söhbətimizdən o da bəlli oldu ki, rayonda müasir tələblərə cavab verən Regional Perinatal Mərkəzinin də tikilib istifadəyə verilməsi dövlətin Şəki səhiyyəsinin inkişafına göstərdiyi qayğının daha bir parlaq nümunəsidir. Nümunəvi işi ilə seçilən kollektivin fəaliyyəti ilə daha yaxından tanış olmaq qərarına gəldik.

Öyrəndik ki, tibb müəssisinə 1985-ci ildə Azərbaycan Tibbi Universitetinin Müalicə işi fakültəsini bitirmiş Ruziyyə xanım Hüseynova rəhbərlik edir. O, 1992-ci ildə Şəki Doğum Evi Kompleksində həkimlik fəaliyyətinə başlamışdır. Bu müddət ərzində R.Hüseynova Türkiyə, Avropanın müxtəlif ölkələrindəki universitetlərdə dəfələrlə treninqlərdə, seminar və konfranslarda iştirak etmişdir. 2013-cü ildə isə Tibb üzrə fəlsəfə doktoru, alimlik dərəcəsi almışdır.



Söhbət zamanı görülmüş işlərdən danışan Ruziyyə xanım bildirdi ki, çalışdığım Şəki Regional Perinatal Mərkəz əvvəllər Doğum Evi Kompleksi adlanırdı və köhnə, yararsız binada yerləşirdi. Dövlətimizin apardığı uğurlu siyasətin nəticəsi səhiyyədə də öz əksini tapdığı üçün respublikada 5 Regional Perinatal Mərkəz açıldı ki, biri də Şəki şəhərinin payına düşdü. Çalışdığımız Perinatal Mərkəz geniş, yaraşılıqlı, şəraitli, dünya standartlarına cavab verən bir binada yerləşir. Şəki Regional Perinatal Mərkəzimiz 55 çarpayılıqdır. Mərkəzimiz respublikanın 3-cü səviyyəli tibb müəssisəsi olduğu üçün ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş, ixtisaslaşmış, savadlı kadr potensialı toplaşmışdır. Hər kəs öz işini sevə-sevə, şərəflə yerinə yetirir.



Mərkəzin direktoru onu da qeyd etdi ki, Azərbaycan da bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə istifadə edilən icbari tibbi sığortanın tətbiqinə hazırlaşır. Azərbaycanın səhiyyə sisteminin inkişafına xidmət edəcək bu sistem səhiyyəmizi köklü surətdə dəyişəcək. Bu sistemin tətbiqi ilə səhiyyə sistemində islahatlar aparmaq istəyən Azərbaycan onun tətbiqi üçün artıq müəyyən hazırlıq işləri də görüb. Bəzi insanlar üçün tamamilə yeni olan icbari tibbi sığorta nədir? Sadə dillə desək, bu, daha çox adi vətəndaşların mənafeyinə yönəlmiş, onları keyfiyyətli tibbi xidmət və dərmanla təmin etməyə yardım edən bir sistemdir. İcbari tibbi sığorta işçilərin əməkhaqqından, əməkhaqqından ayırmalardan tutmuş tibb müəssisələrinin akkreditasiyasına kimi müxtəlif parametrləri əhatə edən çoxşaxəli prosesdir. İcbari tibbi sığorta ən yaxşı modeldir ki, burada həm özəl, həm də bələdiyyə tabeliyində olan tibb müəssisələri icbari tibbi sığorta vasitəsilə maliyyələşə bilər. Bu sistem tətbiq olunduqda tibbi xidmətin keyfiyyəti istər-istəməz yüksələcək. Çünki bu sistemin tətbiqi ilə bu prosesdə iştirak edən tərəflərin də maraqları artacaq. İcbari tibbi sığorta səhiyyə sisteminin maliyyələşməsinin ən mükəmməl formasıdır. İşəgötürən müəssisə icbari tibbi sığorta ayırmalarının sərfəli xərclənməsində, işçinin çox xəstələnməməsində, işçi xəstələndikdə də onun çox qısa vaxt ərzində müalicə olunması və işə geri qayıtmasında maraqlı olacaq. İcbari tibbi sığorta agentliyi xəstə olan şəxsin əlavə müayinələrə cəlb olunmamasına, onun reseptində əlavə dərmanların yazılmamasına, müalicə müddətinin həddindən artıq uzadılmamasına, bir sözlə, əlavə vəsaitlərin xərclənməməsinə çalışacaq. Səhiyyə müəssisəsinin marağı isə yaxşı, keyfiyyətli tibbi xidmət göstərə bilmək olacaq. O çalışacaq ki, icbari tibbi sığorta şirkəti yaxşı xidmət göstərən tibb müəssisəsi kimi onunla yenidən müqavilə bağlasın, seçim zamanı başqa tibb müəssisələrinə üstünlük verməsin. Nəticədə isə bu sistemin tətbiqindən tərəflərin hər biri fayda götürəcək və "udacaq". Bu sistem əsasında pasiyentlər yaxşı xidmət göstərməyən tibb müəssisələrini daha yaxşı görə biləcəklər, onların seçim etmək imkanları artacaq, Nəticədə yaxşı xidmət göstərməyən tibb müəssisələrinə gələn pasiyentlərin sayı azalacaq. Sığortanın tətbiqi əhalinin sağlamlıq durumunun yaxşılaşmasına da ciddi təsir göstərəcək.

Biz güman edirik ki, icbari tibbi sığortanın tətbiqi nəticəsində tibb müəssisələri əhaliyə keyfiyyətli tibbi xidmət göstərəcək, icbari tibbi sığorta bütün vətəndaşların məcburi olaraq sığorta olunması deməkdir. Bu zaman işsiz statusu olan və ya ünvanlı sosial yardım alan ailələr üçün sığorta haqları dövlət tərəfindən alınır. Vətəndaş isə səhiyyə xidmətinə ehtiyacı olan, daha aydın desək, xəstələnən zaman sığorta sənədini göstərməklə pulsuz olaraq müalicə oluna biləcək. Biz Prezidentimizin uğurlu siyasətinə inanırıq və bu layihənin də bütün respublikada həyata keçirilməsinin uğurla nəticələnəcəyinə ümid edirik.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# "Tufan" tipli sərhəd gözətçi gəmisi xidməti-döyüş fəaliyyətinə başladı

**2019-cu il yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin baxış keçirdiyi Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin "Gəmi İnşası və Təmiri Mərkəzi"ndə inşa edilmiş S-206 nömrəli "Tufan" tipli sərhəd gözətçi gəmisi yanvar ayının 23-də Xəzər dənizinə endirilmiş və xidməti-döyüş fəaliyyətinə başlamışdır.**




Qeyd edək ki, Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, neft-qaz hasilatı və daşınması infrastrukturunun etibarlı mühafizəsinin təşkili üzrə vacib vəzifələri yerinə yetirən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin xidməti-döyüş imkanlarının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev dövlətçiliyinə hər zaman sadiq olan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında hər bir döyüş tapşırığını qürur və şərəflə yerinə yetirməyə hazır olan Azərbaycan sərhədçiləri tərəfindən yeni sərhəd-gözətçi gəmisinin xidməti-döyüş fəaliyyətinə başlaması böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

**Dövlət Sərhəd Xidmətinin**
**mətbuat mərkəzi.**

# Turizmin inkişafına diqqət artır

Ölkəmizə daha çox gəlir gətirən qeyri-neft sahələrindən biri də turizmdir. Bu sahəyə dövlətimiz xüsusi qayğı və diqqət göstərir. Təsadüfi deyildir ki, Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev yekun nitqində demişdir: **"Turizm sahəsində gözəl nəticələr var. Qeyd etdiyim kimi, keçən il də 6 faiz artım olub və ölkəmizə 2 milyon 850 min xarici qonaq gəlib. Bizdə turizm sənayesi yaradılmalıdır. Azərbaycanda olan bütün amillər turizmin sürətli inkişafını şərtləndirir. Təhlükəsizlik, qonaqpərvərlik, tarixi abidələrimiz, gözəl iqlimimiz, 9 iqlim tipi, dəniz turizmi, dağ-xizək turizmi, müalicəvi turizm bizdə çox sürətlə inkişaf edə bilər. Gözəl mətbəx, müasir infrastruktur, otellər, yollar, nəqliyyat infrastrukturu, 6 beynəlxalq aeroport. Bütün bu amillər turizmin sürətli inkişafını təmin etməlidir".**




Möhtərəm Prezidentin söylədiyi kimi, ölkəmizdə turizmin inkişafı üçün çox böyük imkanlar vardır. Respublikamızın böyük turizm potensialına malik rayonlarından biri də Qubadır. Qubanın zəngin təbiəti, tarixi yerləri, qədim mədəniyyət abidələri, sənətkarlıq nümunələri, ləziz xörəkləri olan milli mətbəxi buraya gələn xarici qonaqların diqqətini cəlb edir. Odur ki, həm xarici, həm yerli turistlər bu gözəl məkana tez-tez üz tuturlar. Qubaya gələn turistlərin sayı ildən-ilə artır. Təkcə ötən il rayona 130 minə yaxın turist gəlib. Burada turist axını üçün hər cür şərait yaradılıb. Turistlərə 50-dən çox ən müasir otellər xidmət göstərir. "Quba Palace", "Retro", "Məst-Dərgah", "Cənnət bağı" "Holiday village" , "Nazlı bulaq", "Şahdağ" istirahət məkəzləri daha çox turist qəbul edir. Bu rayonda turizm artıq mövsümi xarakter daşımır. Qubada qış turizmi də çox maraqlı keçir. Gələn qonaqlar əsasən Qəçrəş meşəsi istiqamətində olan otellərdə istirahət edirlər.

Ötən il Quba şəhərinin mərkəzində istifadəyə verilmiş Quba "Şahdağ" SPA oteli öz xidmət keyfiyyəti ilə fərqlənən turizm mərkəzlərindən biridir. **Otelin icraçı direktoru İlqar Qurbanəliyev** deyir ki, fəaliyyət göstərdiyimiz bir il ərzində buraya dünyanın hər yerindən turistlər gəlib. Qısa müddət ərzində 10 minə yaxın turist qəbul etmişik. "Şahdağ"da Körfəz ölkələrindən tutmuş Avropa ölkələrinə qədər, hətta Koreya, Yaponiyadan da turistlər dincəlir. Daha çox xaricdən qonaqlarımız olur. Turist axınına səbəb qonaqlara göstərdiyimiz yüksək xidmət, ləziz xörəkləri olan milli mətbəximiz, yüksək süfrə mədəniyyətimiz, qədim adət-ənənələrimiz və ən əsası isə Qubanın əsrarəngiz təbiətidir. Onu da qeyd edim ki, xidmət şəbəkəsini genişləndirmək məqsədilə yaxın vaxtlarda otelin daha bir korpusunun tikintisinə başlamağı nəzərdə tutmuşuq. Dövlətimizin və onun müdrik rəhbərinin turizmə xüsusi önəm verməsi, qayğı göstərməsi bu sahə ilə məşğul olan biz sahibkarları daha yaxşı işləməyə ruhlandırır. Son müşavirədə möhtərəm Prezidentin ölkəmizdə turizmin inkişafı ilə bağlı söylədiyi çox dəyərli fikirlər ürəyimizdən xəbər verir. Fürsətdən istifadə edib kollektivimiz adından bu sahəyə göstərdiyi xüsusi qayğıya görə cənab Prezidentə öz dərin minnətdarlığımızı bildirir, ona möhkəm cansağlığı arzulayırıq.



Son illər Qubada ucqar dağ kəndlərinə belə yolların çəkilməsi turizm marşrutlarının sayını artırıb. Hazırda rayonda 6 istiqamət üzrə turizm marşrutu fəaliyyət göstərir. Son müşavirədə ölkə Prezidentinin çıxışında, həmçinin, tarixi yerlərimizin yenidən qurulması və bərpası istiqamətlərində də çox böyük işlər görüldüyü qeyd olunmuşdur. O, tarixi kəndlərimizlə bağlı dəyərli fikirlər söyləmişdir.

Bu rayonda da tarixi abidələr, qədim yaşayış yerləri - kəndlərimiz daim diqqət mərkəzindədir. Heç təsadüfi deyildir ki, bu yaxınlarda Xınalıq kəndinin ölkəmizdə turizm üçün əhəmiyyəti və əhalinin alternativ yolla rahat gediş-gəlişinin təmin edilməsi məqsədilə ölkə Prezidenti "Quba rayonunun Susay-Xınalıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Qeyd edək ki, yeni yolun çəkilişi daha bir turizm marşurutunun açılmasına səbəb olacaqdır. Ümumiyyətlə, rayonda müasir infrastrukturun yaradılması turizmin inkişafına böyük təkandır.

Bəli, ölkəmizdə turizm sürətlə inkişaf etməkdədir. Son müşavirədə dövlət başçısının bu sahə ilə bağlı söylədiyi fikirlər, verdiyi tapşırıqlar turizmin sabahkı uğurlarından xəbər verir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# Ənənəvi qış polosu üzrə dünya kuboku turnirinə start verildi

**2019-cu il yanvar ayının 25-də İsveçrənin Sankt-Moritz şəhərində ənənəvi qış polosu üzrə "SNOW POLO WORLD CUP ST. MORITZ" dünya kuboku turnirinə start verilmişdir.**

Bu il 35-ci dəfə keçirilən və dünya miqyasında ən güclü idmançıların cəlb olunduğu turnirdə Azərbaycan Respublikasının "Land of Fire" komandası da iştirak edir. Turnirin digər iştirakçıları "Cartier", "Badrutt's Palace Hotel" və "Mazerati" komandalarıdır.

Turnir öncəsi komandaların təqdimat mərasimi keçirilmiş, turnir çərçivəsində qarşılaşmaların iştirakçıları müəyyən olunmuşdur. Püşkatmanın nəticələrinə görə 25 yanvar tarixində "Land of Fire" komandası Bakı vaxtı ilə saat 15:00-da "Cartier" komandası ilə, "Badrutt's Palace Hotel" komandası isə 19:15-də "Mazerati" komandası ilə qarşılaşacaqdır.

26 yanvar tarixində komandamızın "Badrutt's Palace Hotel" komandası ilə görüşü nəzərdə tutulmuşdur. Turnirin sonuncu günü - 27 yanvar tarixində 3-cü yer uğrunda oyun və final matçı keçiriləcəkdir.



Final oyunundan sonra turnir qalibinin, turnirin ən yaxşı oyunçusunun, ən yaxşı patronun (sponsorun), ən yaxşı polo atının müəyyən edilməsi və mükafatlandırılması, eyni zamanda polo idmanının təbliğində xüsusi xidmətləri olan şəxslərə 2018-ci ildə təsis olunmuş "Baku Moritz Polo Mükafatı"nın verilməsi nəzərdə tutulmuşdur.

Sankt-Moritz gölünün donmuş buz qatı üzərində təşkil olunan turnir çərçivəsində keçiriləcək oyunlardan əvvəl tamaşaçılara "Odlar Yurdu - Azərbaycan" adlı kompozisiya təqdim olunacaqdır. Azərbaycan Respublikasının əməkdar məşqçisi Azər Həmzəyevin rəhbərliyi ilə Dövlət Sərhəd Xidmətinin 20 süvarisinin Qarabağ atlarının belində unikal igidlik hərəkətləri, xoreoqraf, Azərbaycan Respublikasının əməkdar artisti Nailə Məmmədzadənin rəhbərliyi ilə "Sərhədçi" rəqs ansamblının milli musiqimizin ecazkar sədaları altında möhtəşəm rəqsləri Qarabağ atlarının gözəlliyini, milli atçılıq ənənələrimizin qədimliyini və Polo oyununun Vətəni kimi artıq bütün dünyada qəbul edilən Odlar Yurdu - Azərbaycanın atçılıq mədəniyyətini nümayiş etdirəcəkdir.

**Azərbaycan Respublikasının**
**Atçılıq Federasiyasının**
**mətbuat mərkəzi.**

# Alim, ziyalı xatirəsinə xoş ehtiram

**Az-az şəxsiyyət var ki, el içində hərtərəfli hörmət qazanır. Az-az ziyalı var ki, onu canlı görmək, gendən də olsa, şəxsiyyət adının fövqünə baxış cilvələmək istəyirsən. 29 il əvvəl - 1990-cı ilin yanvarında şovinist qüvvələrin əli ilə qətlə yetirilən hörmətli alim-professorumuz Ərəstun Həmzə oğlu Axundovun ziyalı fəhmi də bu ucalıqda bərq vurur. Elmi ictimaiyyətin bu gün də dəyər verdiyi bu şəxsin üz cizgilərində böyük tərbiyə, etik-əxlaq normaları məna tapırdı. Mən illərlə onun simasında əxlaq cığırları görürdüm. Ərəstun müəllim bəlkə də ona görə uca görünürdü ki, abırlı idi, həyalı idi, vicdanlı idi, nəhayət, əsl azərbaycanlı idi, böyük-kiçik yeri bilirdi və s. Onun insan adının zirvəsində maraqlı ictimai zəminlər bərqərardı; yəni, o, hər fikrin qənşərinə öz bitkin ideyasını çıxarır, ruh aləminin məna çalarını ünsiyyətdə olduğu gənclərin yaddaş qütblərinə ötürür, zahiri aləmlərin ahəngini özünün ezoterik bilgisi ilə deyil, sözün bətnində mayalanan Allah eşqi ilə cilalayırdı.**

Pofessor Ərəstun Axundovun ömür salnaməsində yüz illərin möhtəşəm fəvvarələri çırpınırdı. Açığı, Ərəstun müəllim nə Sokrat idi, nə Platon, o, elmin, pedaqogikanın, psixologiyanın, məntiq və özünüdərkin və s. hazırkı "buz dövrü"nün yorulmaz, həm də peşəkar alpinisti idi, bütün qənaətlərində patriarxal adət və ənənələrə qarşı çıxırdı. Xoşbəxt idi ki, onun ictimai yüksəlişə güc verən yenilikçi ruhu heç vaxt dilemma qarşısında qalmadı, əksinə, həyat və yaşam məzmunundakı sərrastlığı zahiri mənalara sığınacaq etmək üçün özünün Müəllim, Alim, İnsan və Şəxsiyyət bacarığından istifadə edə bildi...

Ərəstun müəllim öz xalqını xristianlar "Tövrat"ı - "İncili", müsəlmanlar "Quranı" sevən kimi sevdi. Biz dəfələrlə bunun şahidi olmuşuq. Cəmiyyətimizin fiziki sağlamı da, fiziki şikəsti də onun üçün əziz idi. Onun bütün sahələrdə ilham mayasının palçığı zərr kimi bərq vururdu.

Ərəstun müəllimin dərc etdirdiyi, tərtibat verdiyi kitabların hər birinin xüsusi estetik zövqü vardı. O, hər vəchlə quru, səhih tərzlərdən gen dururdu, fikirlərinin fəlsəfi dəyərini sadə israrlarda axtarırdı. Bir növ, oxucu-vətəndaş yaddaşına sadə dillə necə təsir etməyin yollarına çıxmışdı. Bunun üçün nə dəridən-qabıqdan çıxdı, nə də qarşısına planlı məqsəd qoydu, sadəcə, duyğularına inandı, ruhunu iç dünyasının limanı sandı... İstər öz elmi işləri, istərsə də opponenti olduğu ziyalıların işləri onun ilham kəbəsi idi. O, işığın qaranlıqdakı əksini görə bilirdi. Onun çırpıntıya məruz qalan ehtiyacı Vətən dərdi qədər qabarıq idi. Onun yaraları hələ də qaysaq verən həyat göynərtisi Qarabağ acısı qədər təsiredici idi. Əlbəttə, Vətən acılardan başlayırsa, o da bu məntiqə aludə olmalı idi...

Ərəstun Axundov həyatın çətinlik adlı toplarının təlatümlərindən gah gərilən, gah da iri dalğalar qoynunda lövbər vuran nəhəng gəmilərdən idi. Çətinliklərə tuş gəldi, əzilmədi, ağrı çəkdi, sızıldamadı, sındı, əyilmədi. Bir gün çörəksiz qalmadı; Allah onu öz bacarığının nemətləri ilə doydururdu. Ərəstun Axundov nəhəng buz dağından qopmuş materik böyüklüyündə bir aysberq idi. Sakit-sakit öz könül okeanının sularında üzürdü; öz abrında, öz həyasında, öz vicdanında, öz axarında. Əvvəl necə idisə, zövqümüzə indi də elə çatır. Səmimi deyirəm, bəlkə də dünyanı ona versəydilər, dəyişməzdi, necə var, elə qalardı. Çünki o, bu dünyaya dünya malına görə dəyişilmək üçün gəlməmişdi...

Ərəstun Axundov dünyanın bütün çək-çevirlərini Masallı rayonunun Mollaba kəndi ilə Bakı arasında körpü etmişdi. O, M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunda "Siyasi iqtisad" kafedrasının baş müəllimi, dosent, kafedra müdiri olmuş, 1967-1990-cı illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda dosent, professor, kafedra müdiri, dekan vəzifələrində çalışmışdı. Təəssüf ki, 1990-cı ilin yanvarı onun da ömür salnaməsində qara izlər buraxdı. Şəhid Ərəstun Həmzə oğlu Axundov adı Azərbaycan iqtisadçıları arasında Azərbaycan Sovet Sosialist Respublikasından SSRİ Ensiklopediyasına düşən yeganə azərbaycanlı alimimizdir. Necə ki, o, heç vaxt təltiflər, mükafatlar həvəsində olmadı, Vətən uğrunda şəhid olanda da, öz şəxsiyyət hissində yalnız torpaq nəğmələri hayqırdı. Sanki o, ən böyük təltifi Vətənə can fəda etmək hesab etdi.

Professor Ərəstun Axundov "Siyasi iqtisad" kafedrasının bütün əməkdaşlarının elmlər namizədi və elmlər doktoru kimi yetişməsində çox böyük rol oynamış, istər kafedra əməkdaşlarının, istərsə də digər institut əməkdaşlarının müdafiəsində opponenti kimi çıxış etmişdi. Ümumiyyətlə, insani keyfiyyətləri ilə institutun gənc nəslinin inkişafında əlindən gələni əsirgəmədi. Ərəstun müəllim siyasi iqtisada adını böyük hərflərlə "Vaxta qənaət qanunu" ilə daxil etmişdir. İlk əsərləri 60-cı ildən nəşr olunmağa başlayıb. 1962-cı ildə Ukrayna SSR Kiyev şəhərində namizədlik dissertasiyası müdafiə etmiş, 1965-ci ildən isə SSRİ Ali Attestasiya Komissiyası onu dosent elmi adına layiq görmüşdür.

"Vaxta qənaət qanunu" siyasi iqtisad elmində yeni istiqamətin yaranması kimi diqqəti cəlb edir. Ərəstun müəllimin 1977-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyası məhz bu elmi istiqamət üzrə apardığı elmi müşahidələrin ümumiləşdirilməsinə həsr olunmuşdu. Bu qanunun mahiyyəti ondan ibarətdir ki, asudə vaxtın uzadılması və məşğulluq saatları arasında ziddiyyətlər mövcuddur, həmin qanunun dərk olunması isə mövcud ziddiyyətlərin aradan qaldırılmasının vacibliyinin dərk olunmasına xidmət edir. Bu yanaşmada xüsusi olaraq qeyd olunur ki, ictimai istehsalın inkişafının müəyyən tarixi inkişaf mərhələsində obyektiv olaraq asudə vaxtın artırılması tələb olunur və başlıca səbəbi isə onunla izah olunur ki, işçinin qazandığı bacarıq və qabiliyyətlər, ustalıq təkcə iş prosesində baş vermir, onun peşə və mədəni hazırlıq səviyyəsinin yüksəldilməsi, iş prosesindən kənarda da baş verir. Elmi-texniki tərəqqi şəraitində cəmiyyət üzvlərinin inkişafı, istirahət etməsi, uşaqların tərbiyəsi üçün vaxta tələbat getdikcə artır. Yaxın gələcəkdə sərvətin ölçüsü kimi asudə vaxt çıxış edəcək, intellektin səviyyəsi isə iqtisadi tərəqqinin əsas faktoruna çevriləcəkdir.

Müasir dövrdə dünyanın inkişaf etmiş ölkələrində bir çox nəzəriyyələrdə xüsusən də elmi-texniki tərəqqinin sosial nəticələri ilə bağlı mühakimələrin irəli sürüldüyü nəzəriyyələrdə, həmçinin insan inkişafı, insan kapitalı, intellektual kapital və s. kimi nəzəriyyələrdə səslənən fikirlərlə "Vaxta qənaət qanunu" nəzəri yanaşmasındakı fikirləri həmahəng hesab etmək olar və burada ən başlıca ideya insanın yaradıcı potensialının inkişaf etdirilməsi imkanları və bunun üçün də vaxtın səmərəli istifadə edilməsi zərurəti xüsusi olaraq vurğulanır.

Ərəstun Axundov 1979-cu ildə SSRİ AAK-ın professor elmi adını almış, 1982-1987-ci illərdə D.Bünyatzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Xalq təsərrüfatının planlaşdırılması" fakültəsinin dekanı vəzifəsində çalışmış, institutun 1987-1990-cı illərdə ümumiqtisad fakültəsi üzrə siyasi iqtisad kaferasının müdiri olmuşdur.

Təəssüflər olsun ki, Vətən sevdalı alimimiz, professor Ərəstun Həmzə oğlu Axundov, yuxarıda dediyimiz kimi, 1990-cı ildə dünyasını dəyişdi. Onu 20 Yanvar şəhidlərindən biri adlandırsaq, heç də səhv etmərik. Çünki mən onun ölümünün canlı şahidi olmuşam... 17 yanvar 1990-cı il tarixində instituta gələrkən o, qəflətən tanımadığı şəxs tərəfindən metronun içərisində vuruldu. Onu düşmən əli ilə aradan götürmək, Azərbaycan elminə ağır zərbə vurmaq düşmən işi idi...

Bu gün professor Ərəstun Həmzə oğlu Axundovun məzarı Bakı şəhərinin köhnə qəbiraslığındadır. Hər dəfə ziyarətinə gedəndə sanki qayğılı baxışlarını üzümüzə dikir, susqun nəzərlərini eyhamla ətrafa səpələyir... Hər yaz sısqa yağışlarda islanmış tumurcuqlar kimidir Ərəstun Həmzə oğlu Axundovun insan-ziyalı baxışları. Biz o baxışlarda əsl azərbaycanlı hünəri görürük...

**Ağadadaş QAFAROV,**
**iqtisad elmləri doktoru, professor.**

# İşəgötürənlərin öz tələblərini konkretləşdirməyə ehtiyac var

## UNEC rektoru məşğulluqla bağlı müasir tələbləri açıqladı






**Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Beynəlxalq Əmək Təşkilatının (BƏT) birgə təşkilatçılığı ilə "Gənclərin məşğulluğu: işəgötürənlərin baxışı, çağırışlar və perspektivlər" mövzusunda keçirilən konfransda çıxış edən UNEC rektoru, professor Ədalət Muradov müasir əmək bazarında sürətlə dəyişən prinsiplərə və meydana çıxan yeni yanaşmalara diqqət çəkib. IV sənaye inqilabında unifikasiya edilmiş kütləvi tələbin fərdiləşmiş tələblə əvəz olunduğunu və bunu reallığa çevirən çevik texnologiyaların tətbiqinin kreativ və innovativ mütəxəssislərə tələbin artırdığını qeyd edib.**

Rektor bildirib ki, karyera anlayışı da ənənəvi mahiyyətini dəyişməkdədir. Belə ki, karyera anlayışı hazırda işçinin konkret bir şirkətə ömürboyu xidmət etməsi deyil, həmin işçinin peşəkarlıq keyfiyyətinin daim yüksəldilməsini əks etdirir.

Rektor onu da qeyd edib ki, UNEC məzunlarının əmək bazarına uyğunluğuna görə məsuliyyəti öz üzərində saxlayır. İş dünyasına təqdim edilən "UNEC2B" platforması çərçivəsində işəgötürənlər məzunları işə götürdüyü halda universitet üç il ərzində "servis xidməti"ni təklif edir. Həmçinin iş müsahibəsi zamanı UNEC-in yuxarı kurs tələbələrinin zəif cəhətləri aşkar olunarsa, məzun olana qədər həmin zəifliyinin aradan qaldırılmasını da UNEC öz üzərinə götürür. Bundan başqa job.unec.edu.az portalı yaradılmış və bu virtual əmək birjası tələbələrlə işəgötürənlər arasında effektiv kommunikasiya rolunu daşıyır.

UNEC rektoru əmək bazarının tələblərinə çevik və adekvat cavab vermək üçün distant təhsilin aktuallığını xüsusilə vurğulayıb. UNEC-də yaradılan ən müasir distant təhsil infrastrukturu işəgötürənlərin hər hansı təlim ehtiyacını qarşılamağa hazırdır. Belə ki, işçilər öz iş yerlərindən ayrılmadan UNEC-də distant təlimlərə qoşula və dünyaca nüfuzlu mütəxəssislərin cəlb olunduğu dərslərdə iştirak edə bilərlər. Qeyd olunanların reallaşması üçün işəgötürənlərin öz tələblərini konkretləşdirməsinə ciddi ehtiyac var.

*Energetika*

# Xidmət abonentləri razı salır

Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində ölkəmizin energetika sektorunda müsbət dəyişikliklər müşahidə olunur, qarşıya qoyulmuş vəzifələr uğurla icra edilir. Hər yerdə olduğu kimi, Bakının Nizami rayonunda da abonentlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchizatına maksimum səy göstərilir, ayrı-ayrı ünvanlarda texniki dəyişikliklər dünya standartları səviyyəsində həyata keçirilir, uğurlu nəticələrə imza atılır.

Biz rayon Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Ələsgər Bədəlovla söhbət edərkən o, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

—Energetiklərimiz "Azərişıq" ASC tərəfindən qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi, xüsusilə yığım faizinin maksimum səviyyəyə çatdırılması üçün abonentlər arasında yüksək maarifləndirmə işləri aparır, mütərəqqi metodların tətbiqinə geniş yer verilir.

2018-ci ildə kollektivimizin qazandıqları nailiyyətlər təqdirəlayiqdir. Vurğulamaq lazımdır ki, rayonun ərazisində 64500 abonent qeydə alınmışdır. İşin mütəşəkkilliyi təmin olunduğundan ötən il yığım faizi 101,9 faizlə yerinə yetirilmişdir ki, bu da əvvəlki illərlə müqayisədə yüksəkdir.

Energetiklərimizin birgə səyi nəticəsində 2018-ci ildə yeni abonentlərin qeydiyyata götürülməsi, şəbəkəyə qoşulması, abonentlərin ad dəyişmələri, qaçqınlarla bağlı işlər, sayğaclarda və elektrik verilişi xətlərində nasazlıqların aradan qaldırılması, abonentlərlə bağlı arayışların verilməsi və digər xidmətlər "Asan" Kommunal Xidmətləri Mərkəzləri tərəfindən layaqətlə həyata keçirilmişdir.

Ötən il rayonun Babək prospektindəki NZS qəsəbəsində 1600 metr yeni kabel xətti çəkilmiş, Babək küçəsində kabel keçidlərinə 2300 boru çəkilmiş, Keşlə qəsəbəsinə gedən 600 metr kabel xətti dəyişdirilmişdir. Həmçinin Keşlə qəsəbəsindəki Müzəffər Nərimanov küçəsinin yenidən qurulması ilə əlaqədar 6 kv-luq 640 metr kabel xətti yenisi ilə əvəz edilmiş, Çobanzadə küçəsində və Rüstəmov küçələrində ümumi uzunluğu 480 metr 10 kv-luq kabel xətti yeniləşmişdir.





Naxçıvanski küçəsi 22-də 1 ədəd yeni TM 2x630 KVA gücündə TM dövriyyəyə qoşulmuşdur. 50-yə yaxın binanın paylayıcı şitləri dəyişdirilmiş və təmir olunmuşdur. 10 ədəd TM-də transformatorlar daha güclüsü ilə əvəz edilmişdir.

Ələsgər Bədəlov sözünə davam edərək vurğuladı ki, dünyanın aparıcı şirkətlərinin istehsal etdikləri müasir avadanlıqların, alınıb quraşdırılması, yüksək texnologiyaların tətbiqi müasir tədris prosesinin yaradılmasını labüd edir. Bu istiqamətdə kadr və kadr hazırlığı problemini uğurla həll etmək, eləcə də cəmiyyətə tələb olunan təcrübəli kadr potensialını vermək üçün bir neçə il öncə "Azərişıq" ASC-də Tədris Mərkəzi yaradılmışdır. Mərkəzdə kadrların təkmilləşməsi, yenidən hazırlanması və ixtisaslarının artırılması ölkə iqtisadiyyatının inkişafına və əmək bazarının tələblərinə uyğun yeniləşməsinə imkan yaratmışdır. İdarəmizdə çalışan energetiklər mütəmadi olaraq Tədris Mərkəzində aparılan ixtisasartırma kurslarında iştirak edir, elektrik şəbəkəsində istifadə olunan və gələcəkdə istifadə olunacaq texniki avadanlıqlardan istifadə olunmasını mükəmməl öyrənirlər.

Rayonun energetikləri 2019-cu ildə ikiqat səylə işləyir, çalışırlar ki, xidmət abonentləri razı salsın, necə deyərlər, hər yan nura qərq olunsun.

**Söhbəti yazdı:**
**Qədir ASLAN,**
**"Respublika".**

# Sel və daşqınlar təhlükə yaratmır, suvarma suyu normal ötürülür

Bəzən təbiətin törətdiyi təhlükələrlə üzbəüz qalırıq. 2010-cu ildə baş vermiş sel daşqınlarının törətdiyi fəsadlar hələ də yaddaşlardan silinməyib. O da xalqımızın yadındadır ki, dövlət başçımız cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız təbiətin amansız imtahanından üzüağ çıxdı. Ağır fəsadlar yaşanmadı, insan itkisinə yol verilmədi. Bununla yanaşı, təbii fəlakətlərdən qorunmaq üçün qabaqlayıcı tədbirlər də unudulmadı. Kür və Araz çaylarında, eləcə də respublikanın gur sulu hesab olunan çaylarında min kilometrlərlə uzunluğu olan sahilbərkitmə işləri görüldü. Hazırda çay sahillərində bina olan yaşayış məntəqələrində əhali sel daşqınlarının gətirə biləcəyi təhlükədən ehtiyatlanmır. Buna baxmayaraq, çayların sululuq səviyyəsi daima nəzarətdə saxlanılır, ehtiyac duyulan yerlərdə sahilbərkitmə işləri davam etdirilir. Belə ixtisalaşmış idarələrdən biri Sabirabad rayonunda yerləşir. İdarənin rəisi görülən işlər barədə məlumat verdi.



**Elman Nuriyev, Kür-Araz çaylarında Bəndlərin İstismarı İdarəsinin rəisi:**

- Bizim gördüyümüz işlər həddindən artıq məsuliyyətli və gərəkli işlərdir. İdarəmiz xalq təsərrüfatını, kənd təsərrüfatını, yaşayış sahələrini, əhalini daşqın sularından qoruyur, xidməti ərazilərdə mühafizə tədbirləri görür. Xidməti ərazimiz isə xeyli geniş sahəni əhatə edir. Qazax, Yevlax, Ağcabədi, Zərdab, Ucar, Kürdəmir, Sabirabad, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında, Şirvan şəhərində çay sahillərində işlər görürük. Yola saldığımız ildə bu ərazilərdə qaya uçqunlarının qarşısını almaq məqsədi ilə 1089 kubmetr həcmində daş-betonla, 2800 kubmetr betonla sahilbərkitmə tədbirləri həyata keçirmişik. 129,6 kilometr məsafədə mühafizə bəndləri təmir olunmuş, 200,2 kilometrdə qayakəsmə işləri görmüşük. Sahillərin möhkəmliyi daima nəzarət tələb edən işdir.

Əksər vaxtlarda bəndlərin üzərində bitən kol-kos torpağın müqavimətini zəiflədir, uçqunların yaranmasına səbəb olur. Keçən il mühafizə bəndlərinin qorunması məqsədi ilə 50 kilometr məsafədə bəndlərin yamaclarında kol-kosdan təmizləmə işləri aparılıb.

2019-cu ildə də çoxşaxəli fəaliyyətimizi davam etdirəcək, sel sularının törədə biləcəyi təbii fəlakətlərin qarşısını almaq məqsədi ilə mühafizə işlərinə ara verməyəcəyik.

**Əhliman Kərimov, Mollakənd Mexaniki Suvarma İdarəsinin rəisi:**

- Kürdəmir rayonu respublikamızın aran hissəsində yerləşdiyindən əkin sahələri bütünlüklə suvarma suyu ilə suvarılır. Mütəxəssislər yaxşı bilirlər, mexaniki üsulla suvarma çətin prosesdir. Burada işin gedişatı çaylardakı suyun səviyyəsindən asılı olur. Təkcə ay, həftə ərzində deyil, hətta gün ərzində suötürücü nasosların yerini bir neçə dəfə dəyişmək lazım olur. Çətinliklər var, buna baxmayaraq, kollektivimiz işin öhdəsindən lazımınca gələ bilir. Yola saldığımız 2018-ci təsərrüfat ilində öhdəmizdə olan 28.471 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmiş, fermerlərin suvarma suyu sarıdan korluq çəkməsinə imkan verməmişik. Əkin sahələri isə çoxşaxəli olmuşdur. Keçən mövsümdə fermerlər 14.509 hektarda taxıl, 5940 hektarda yem bitkiləri, 980 hektarda bostan-tərəvəz, 2932 hektarda pambıq bitkiləri becərmiş, bundan əlavə 3860 hektar həyətyanı sahədə əkin işləri aparmışlar. Suvarma işləri optimal müddətdə başa çatdırılmışdır.

Mexaniki suvarmada suötürücü kanalların lildən təmizlənməsi, habelə, nasosların, elektrik mühərriklərinin, borulu keçidlərin vaxtlı-vaxtında təmiri vacib şərtdir. Keçən il 360 kilometr suötürücü kanalda lildən təmizləmə işi görülmüş, 64 ədəd qurğu cari, 7 ədəd nasos, 4 ədəd elektrik mühərriki əsaslı təmir edilmişdir.

Yeri gəlmişkən deyim ki, bizə tapşırılan vəzifənin yerinə yetirilməsində hər cür maşın-mexanizmlə təmin olunmuşuq. Qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi kollektivimizə lazımi köməklik göstərir.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# Bərdəli fermerin uğurları

Respublika Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlara əsasən ölkədə qeyri-neft sektoru hazırda yüksələn dinamika ilə inkişaf edir. Sahibkarlığa, eləcə də aqrar sahədə çalışanlara dövlət dəstəyi durmadan artır. İstehsal olunan kənd təsərrüfatı məhsulları daxili bazarlarda bolluq yaratmaqla yanaşı, xarici ölkələrə ixrac olunması üçün də münbit şərait yaradılmışdır. Son illərdə Dövlət başçısının tapşırığına əsasən Azərbaycan üçün ənənəvi gəlirli sahə sayılan pambıqçılığın inkişafı təmin edilmişdir. Bərdə rayonu ötən əsrin 70-80-ci illərində pambıq tədarükündə həmişə ön sıralarda dayanmışdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, müstəqilliyimizin ilk illərində pambıqçılıq tamamilə yaddan çıxaraq özünün tənəzzül dövrünü yaşayırdı. Bu gün rayonda pambıq istehsalında inanılmaz nəticələr əldə olunur. Fermerlər əkin sahəsini ilbəil genişləndirirlər. Yüksək göstərici əldə etmiş fermer Elman Nərimanovla söhbət zamanı bunun bir daha şahidi olduq.

**Elman Nərimanov** 1992-ci ildə Bərdənin Xanxanımlı kəndində kolxozda əmək fəaliyyətinə başlamışdır. O zamanlardan onun əkin-biçinə böyük həvəsi olmuşdur. Bu səbəbdən o, 2005-ci ildən fermer kimi fəaliyyətə başlamışdır. İlk dəfə 7-8 hektar sahədə pambıq əkərək hər ha-dan 25-30 sentner məhsul əldə etmişdir. 2011-ci ildə 50 ha, sonrakı illərdə isə 80-85 ha sahədə pambıq əkib becərmiş, hər hektardan 40-45 sentner yüksəkkeyfiyyətli məhsul toplamışdır. Əldə olunan gəlir fermeri qane etdiyindən ötən il əkin sahəsini artıraraq 115 hektara çatdırmış və yüksək məhsuldarlığa nail olmuşdur. 2019-cu ilin məhsulu üçün hazırda 81 ha torpaq şumlanmışdır. Lakin fermer bununla kifayətlənməyərək əkin sahəsini 120 ha-ya çatdırmağı nəzərdə tutur. Şumlanmış sahələrdə arat suvarması aparılır. Ötən il sahələrin alaq otlarından təmizlənməsinə və digər işlərə hər gün 80-85 nəfər cəlb olunmuş, işçilərin əməkhaqqı günəmuzd ödənilmişdir. Göründüyü kimi, pambıqçılıq gəlirli sahə olmaqla yanaşı, həm də, insanların işlə təminatında əhəmiyyətli rol oynayır. Burada çalışanların pambıq tarlalarına daşınması 3 ədəd sərnişin avtobusu ilə həyata keçirilir. Ümumilikdə təsərrüfatda yüz nəfər insan mövsümi işlə təmin olunur. Aprel ayının əvvəllərindən avqustun sonlarınadək əsasən becərmə işləri aparılır. Sentyabr ayının əvvəllərində isə məhsul yığımına start verilir. Pambıq toplanışı əsasən texnika ilə həyata keçirilir, bəzi yerlərdə isə insan əməyindən istifadə olunur.

E.Nərimanov bildirdi ki, əvvəllər əkinəyararlı torpaqların bir hissəsi suvarma suyu çatışmazlığından əkin dövriyyəsindən kənarda qalırdı. Lakin ölkə başçısının müvafiq sərəncamı ilə respublikanın bütün bölgələrində dövlət hesabına subartezian quyuları qazılaraq istifadəyə verilmişdir. Sözsüz ki, bərdəli fermerlər də bundan yararlanmışlar. Belə ki, iki ədəd subartezian quyusu təsərrüfatın əhatə etdiyi ərazidə qazılaraq istismara verilmişdir. Bununla da suvarma suyuna olan tələbat tam ödənilmiş, nəticədə əkinəyararlı torpaqlardan maksimum dərəcədə istifadə olunmuş və yüksək məhsuldarlıq əldə olunmuşdur. Elman Nərimanov rayon icra hakimiyyətinin başçısı Vidadi İsayevin fermerlərə qayğısını xüsusilə vurğulayaraq qeyd etdi ki, hər həftə rayon rəhbəri fermerlərlə görüşlər keçirir, hər hansı bir problem olduqda dərhal aidiyyəti orqanlara məsələnin həlli istiqamətində ciddi tapşırıqlar verir. Məhz bunun nəticəsidir ki, Bərdədə aqrar sahə özünün tərəqqi dövrünü yaşayır. Söhbət zamanı məlum oldu ki, təsərrüfatın texnika, gübrə və müxtəlif dərman preparatları ilə təminatı MKT-nin Bərdə filialı tərəfindən yüksək səviyyədə həyata keçirilir. Pambığın becərilməsində aqrotexniki qaydalara tam əməl olunur. Suvarma, arat, mala və səpin optimal müddətdə aparılır. Pambıq bitdikdən sonra kətmənləmə, alaq otlarına qarşı herbisitlərin vurulması, tripis mənənəyə qarşı dərmanlama vaxtlı-vaxtında aparılır. 4 dəfə kultivasiya işləri, 3 dəfə suvarma üçün barazda işləri görülür. Sonra çiçək vaxtında sovkaya qarşı 3-4 dəfə mübarizə aparılır. Fermer pambıqçılığın inkişaf etdirilməsində dövlətin göstərdiyi dəstəyə yüksək qiymət verərək bildirdi ki, ötən il təkcə subsidiya şəklində dövlətdən 37 min manat pul almışdır. Bu isə fermerlərin bu gəlirli sahəyə marağını artırır. Qeyd etmək lazımdır ki, pambığın satış qiyməti hər kq üçün 0,65 AZN civarındadır.



Bütün bunlarla yanaşı, təsərrüfat təkcə əkinçiliklə deyil, maldarlığın inkişaf etməsinə də üstünlük verir. Belə ki, hazırda təsərrüfatda kökəltmə məqsədilə 60 başdan çox iribuynuzlu heyvan bəslənir. Gələcəkdə heyvanların sayının bir neçə dəfə artırılması qarşıya qoyulan əsas məqsəddir. Heyvanların yem bazasının yaradılması üçün 10 ha sahədə arpa əkilərək ürəkaçan məhsuldarlığa nail olunmuşdur. Elman Nərimanov, eyni zamanda, MKT-nin Bərdə filialının ərazi üzrə nümayəndəsidir. Sevindirici haldır ki, fermerin zəhməti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirib. Respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə o yüksək mükafata "İkinci dərəcəli əmək ordeninə" layiq görülmüşdür. Söhbətin sonunda Elman Nərimanov cari ildə daha yüksək nəticələrin əldə olunacağını əminliklə qeyd etdi.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# ABŞERON RAYONUNDA EPİZOOTİYA ƏLEYHİNƏ PROFİLAKTİK TƏDBİRLƏR

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) tərəfindən ölkə ərazisində epizootik sabitliyin təmin edilməsi və zoonoz xəstəliklərin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir. Bu məqsədlə 2019-cu ilin ilk günlərindən başlayaraq Dövlət Baytarlıq Xidməti yerlərdə "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planı"na uyğun iti yoluxucu xəstəliklərə qarşı profilaktiki peyvəndləmə, diaqnostik müayinə, dehelmintizasiya, dezinfeksiya, dezinseksiya və digər tədbirlər aparır.

Hazırda 16 kəndi, 1 şəhəri əhatə edən Abşeron rayonunda epizootik durum sabitdir. Bu sabitliyin qorunub saxlanılması və zoonoz xəstəliklərin qarşısının alınması məqsədi ilə heyvanlar arasında xüsusi təhlükəli xəstəliklərə qarşı 2019-cu ilin epizootiya əleyhinə profilaktik tədbirlərə başlanılıb. 5 sahə baytarlıq məntəqəsi vasitəsi ilə aparılan müayinə və profilaktik tədbirlər həm fərdi, həm də fermer təsərrüfatlarında həyata keçirilir. Epizootik tədbirlər çərçivəsində yanvar ayının ilk günlərindən indiyə kimi Abşeron rayonunun ayrı-ayrı şəxsi təsərrüfatlarında profilaktik peyvəndləmə tədbirləri aparılıb. Həmçinin, iribuynuzlu heyvandan brusellyoz xəstəliyinin müəyyən edilməsi məqsədilə qan nümunəsi götürülərək 870 kvadratmetr sahədə dezinfeksiya və dezinseksiya işləri görülüb.

Qeyd edək ki, Abşeron Rayon Baytarlıq İdarəsinin mütəxəssisləri tərəfindən 2018-ci il ərzində həssas heyvanlar arasında bruselyoz xəstəliyini aşkar etmək və xəstəliyin qarşısını almaq məqsədi ilə iribuynuzlu və xırdabuynuzlu heyvanlardan (qoçlardan) qan nümunələri alınaraq müayinə edilib. Eləcə də, ötən il iribuynuzlu, baş xırdabuynuzlu, təkdırnaqlı heyvanlarda qarayara və qapı itlərində quduzluq xəstəliyinə qarşı peyvəndləmə və 49450 kvadratmetr sahədə profilaktik dezinfeksiya tədbirləri aparılıb.

Abşeron rayonunda bundan sonra epizootik tədbirlər planına uyğun ev quşları arasında nyukasl, iribuynuzlu heyvanlarda dabaq, nodulyar dermatit, leptespiros, brusellyoz, xırdabuynuzlu heyvanlarda qarayara, dabaq, çiçək, leptespiros xəstəliklərinə qarşı profilaktik peyvəndləmə tədbirləri aparılacaq.

Hazırda xüsusi təhlükəli xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir.

**Nəriman CAVADOV,**
**"Respublika"**

# Unudulmuş “Qaçaq Tavat”

Məmməd Əfşanın bu tarixi povestini birnəfəsə oxudum. Niyə?

Bunu əsərin bir neçə məziyyəti ilə əlaqələndirmək istərdim. Hər şeydən əvvəl, əsərin bədii səviyyəsinə görə.

Məmməd Əfşanın yaradıcılığını 50 ildən çoxdur ki, izləyirəm. 1960-cı illərin ortalarında gözəl şairimiz və mənim böyük dostum Osman Sarıvəllinin xahişi ilə rəhbərlik etdiyim Abşeron rayonunda rayon partiya komitəsinin orqanı “Abşeron” qəzetinə işə götürmüşdüm. Universitetin jurnalistika fakültəsini bitirmişdi. Elə ilk gündən də onu həm jurnalist, həm də hələ həvəskar şair kimi izləyirdim. Hər şeydən əvvəl müxbiri olduğu rayon qəzetindəki prinsipial tənqidi yazıları ilə diqqətimi cəlb etmişdi. Elə buna görə də qəzetin redaktoru Faiq Dərgahova zəng edib onu partiya sıralarına qəbul etmək barədə göstəriş verməyim də yadımdadır.

Sonralar mən başqa rayonlarda (Şəki, Ağdam) işlədiyim illərdə də onun həm jurnalistika (xüsusilə sonralar işlədiyi, o zamanın çox diqqətəlayiq satirik jurnalı “Kirpi” jurnalında işlədiyi illərdə), həm də ədəbi-bədii yaradıcılıq sahəsində fəaliyyətini izləmiş və ona olan hüsn-rəğbətim müntəzəm artmışdır.

Bir çox yazarlar kimi, o da poeziyadan nəsrə keçmiş və onlarla fundamental bədii nəsr əsərlərinin müəllifi olmuşdur. Ünsiyyətimiz dostluğa çevrilmiş, hətta filoloq olaraq bəzi əsərlərinin redaktoru da olmuşam. Bu əsəri isə yuxarıda deyəcəyim məziyyətlərilə bütün yaradıcılığının deyərdim ki, zirvəsində dayanır. Bədii səviyyəsi öz yerində, yazıçı bu əsəri ilə Azərbaycan xalqının təəssüflə demək olar ki, indiyədək çox az tanıdığı qadın qəhrəmanının - Qaçaq Tavatın çox parlaq tarixi obrazını yaratması ilə böyük iş görmüşdür.

Biz əfsanəvi, tarixi qəhrəmanlarımız və onların qadınları (Koroğlu, Qaçaq Nəbi və onlarla çiyin-çiyinə vuruşan Nigar, Həcər) eləcə də etnik cəhətdən özümüzünkü olmasa da, coğrafi baxımdan özümüzünküləşdirdiyimiz xəzərlərin hökmdarı Tomris haqqında uzun illərdir oxuyuruq, eşidirik və Qaçaq Tavat adında bir qəhrəman qadınımızın varlığı barədə Azərbaycan ictimaiyyətinin çox cüzi hissəsinin məlumatı vardır.

Respublikamızın Qubadlı rayonunda yaşayıb haqsızlığa və xüsusən erməni-daşnak fitnəkarlığına qarşı qaçaq düşərək on ildən çox bir müddətdə başına topladığı kişi dəstəsinə rəhbərlik edib böyük ağılla, taktiki ustalıqla mübarizə aparan Qaçaq Tavat böyük xalq qəhrəmanı kimi gərək indiyədək dastanlaşa, heykəlləşə idi.

Yazıçı onun mübarizəsini, faktiki etdiklərini elə məharətlə, bədii ustalıqla oxucuya çatdırır ki, bunları oxuyub onlarda bu gün də cəmiyyətimizdə özünü büruzə verən haqsızlıqlara qarşı mübarizəyə alovlanmamaq qeyri-mümkündür. Bu mənada əsərin müasirliyinə söz ola bilməz.

10 il qaçaq dəstəsinin başında durub mağaralarda, kahalarda yaşayan gəncliyin ən çılğın dövründə öz namusunu qoruyub saxlaması Azərbaycan qadınının ismət şərəfinə parlaq işıq salır. Bu şərəf 10 il Sibir sürgünündə olan Qaçaq Məhəmmədin nişanlısının onu gözləməsində də öz ifadəsini tapmışdır.

Qaçaq Tavat özünü ata məhəbbətinə qurban verərək güllələnməkdən və Sibir sürgünündən belə çəkinmir. Bununla da yazıçı onun obrazına daha parlaq işıq salır.

Əsərin üçüncü böyük məziyyəti isə Azərbaycanın bu gün də böyük ziddiyyətlər girdabında çabalayan digər bir qəhrəmanının - Mir Cəfər Bağırovun parlaq bədii obrazında özünü göstərir.

M.C.Bağırov haqqında son illərdə onu təmizə çıxaran onlarla fundamental əsər (Teyyub Qurban, Fazil Məmmədov, Məzahir Məmmədov və b.) yazılmışdır. M.Bağırovla ilk görüşümün böyük təfərrüatını 65 ildən çox qəlbimdə saxlayan mənim də “XX əsrin Mir Cəfər Bağırov fenomeni” kitabım bu il işıq üzü görmüşdür.

Keçən il Mir Cəfər Bağırovun qəbrinin aşkar olunub onun sümüklərinin Böyük Vətən müharibəsinin qəhrəmanlarından olub 22 yaşında həlak olan oğlunun məzarı yanında dəfn olunması da böyük şəxsiyyətin bəraəti deyilmi?

Mir Cəfər Bağırovun şəxsiyyətinə ən parlaq işıq salan bir tarixi fakt xalqımızı SSRİ adlanan nəhəng bir imperiyanın başında dayanan böyük tiranların əlindən alaraq onun sürgün olunmasına dair qərarına (eləcə də Dağıstan xalqlarının) qarşı çıxıb icrasını dayandırmasıdır.




Sonda arzu edərdim ki, yazıçı dostum bu kitabı respublikanın çoxsaylı kitabxanalarına göndərməklə oxucularla onun təqdimatını keçirsin və Qaçaq Tavatın qəhrəman obrazının ictimailəşdirilməsinə və abidəsinin ucaldılması yolunda mübarizəyə başlasın.

Həm də istərdim ki, Qaçaq Tavat haqqında yəqin ki, yaddaşlardan silinməyən (bu yerdə yaradılışından 750 il sonra toplanan “Tövrat”, 325 il sonra toplanan “İncil” kimi müqəddəs kitabları yada salmaq yerinə düşər) xatirələrin toplanması barədə bir kampaniya başlasın.

**Sadıq MURTUZAYEV,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**“Qızıl Qələm” mükafatı laureatı.**

# Azercell 2019-cu ilin ilk Eksklüzivini Zaqataladakı abunəçilərinə təqdim etdi

**Ölkənin mobil kommunikasiya sektorunun lideri olan “Azercell Telekom” MMC, yeni konsepsiyalı Eksklüziv mağazalarını ölkə boyu genişləndirərək, abunəçilərinə yüksək xidmət təklif etməkdə davam edir. Şirkət bu ilin ilk Eksklüzivini Faiq Əmirov küçəsi 8 ünvanında Zaqatala sakinlərinin ixtiyarına verib. Beləliklə, ölkə boyunca Azercell Eksklüziv mağazalarının sayı 21 təşkil etdi.**

Qeyd edək ki, yeni Eksklüziv mağaza ən müasir avadanlıqla təchiz olunaraq, Nordik konsepsiyasına uyğun şəkildə təşkil edilib. Bu mağazalarda abunəçilər istədiyi məhsulu sınaqdan keçirə, həmçinin onları müqayisə edə bilərlər. Düzgün seçim etməkdə, xidmətləri aktiv etməkdə və digər məsələlərdə müştərilərə peşəkar satıcılar yardım edir. Həmçinin mağazada müştərilər mobil texnologiyaları dəstəkləyən müxtəlif aksessuralar, cihazlar əldə edə, eyni zamanda mobil telefonları kredit və nağd şəkildə ala bilərlər. Qeyd edək ki, Eksklüziv ofislərdə nömrənin digər abunəçinin adına rəsmiləşdirməsi və izahlı qaimə əməliyyatı istisna olmaqla, bütün digər Azercell xidmətlərindən faydalanmaq mümkündür.



Azercell Zaqatala şəhərindəki müştəriləri üçün xüsusi kampaniya da keçirir. Belə ki, yanvar ayının 24-dən etibarən 7 gün ərzində, Zaqatala Eksklüziv mağazasından smartfon alan hər kəs 150 AZN hədiyyə balansı əldə edəcək. Bundan əlavə, 200 müştəriyə xüsusi hədiyyə kuponu təqdim olunacaq ki, bu kuponlar vasitəsilə hər kəs nömrə və aksesuar alışı zamanı 50%-dək endirimdən yararlanmaq imkanı qazanacaq.

Qeyd edək ki, Zaqatala Eksklüziv mağazası, bazar ertəsi - şənbə 09:00 - 19:00 (fasiləsiz), Bazar günü 09:00 - 18:00 (fasiləsiz) abunəçilərə xidmət göstərəcək.

Azercell-in ofislərinin ünvanları ilə tanış olmaq üçün, https://www.azercell.com/az/contacts/office/ səhifəsinə daxil olun.




Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi tərəfindən 2019-cu il üzrə dövlət büdcəsi vəsaiti hesabına Səhiyyə Nazirliyinin tabeçiliyində olan və mərkəzləşmiş tədbirlər büdcəsindən maliyyələşən tibb müəssisələrinin tələbatına uyğun olaraq tibbi və digər aparatlar, avadanlıqlar və inventarların satınalınması məqsədi ilə potensial imkanlara (işçi qüvvəsinə, təcrübəyə, maliyyə və texniki imkanlara) malik olan hüquqi və fiziki şəxsləri keçiriləcək açıq tenderdə iştirak etmək üçün dəvət edir.

Lot 1 - Azərbaycan Respublikasında HİV-AİDS-in qarşısının alınması və onunla mübarizə məqsədi ilə nəzərdə tutulmuş tibbi və digər aparatlar və avadanlıqların satınalınması.

Lot 2 - 2017-2021-ci illər qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı üzrə nəzərdə tutulmuş tibbi və digər aparatlar və avadanlıqların satınalınması.

Lot 3 - Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramında nəzərdə tutulan tibbi və digər aparatlar və avadanlıqların satınalınması.

Lot 4 - Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramına uyğun olaraq tibbi və digər aparatlar və avadanlıqların satınalınması.

Lot 5 - Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramında nəzərdə tutulan tibbi və digər avadanlıqların satınalınması

Lot 6 - 2016-2020-ci illər üçün Hemofiliya xəstələri üzrə Tədbirlər Proqramına uyğun nəzərdə tutulmuş tibbi və digər avadanlıqların satınalınması.

Lot 7 - Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramına uyğun nəzərdə tutulmuş tibbi və digər avadanlıqların satınalınması.

Lot 8 - Şəkərli diabet üzrə Dövlət Proqramına uyğun nəzərdə tutulmuş tibbi avadanlıqların satınalınması.

Lot 9 - Diaqnostika məqsədləri üçün nəzərdə tutulan tibbi və digər aparat və avadanlıqların satınalınması

Lot 10 - Şüa diaqnostika məqsədləri üçün nəzərdə tutulan tibbi və digər aparat və avadanlıqların satınalınması

Lot 11 - Tibb müəssisələri üçün nəzərdə tutulan tibbi və digər aparat və avadanlıqların satınalınması.

Lot 12 - Səhiyyə Nazirliyinin tibb müəssisələrinin balansında olan tibbi və digər aparat və avadanlıqlara vaxtaşırı texniki servis işlərinin yerinə yetirilməsi, texniki qüsurlu, sıradan çıxmış və sıradan çıxmaq üzrə olan ehtiyat və komplektləşdirici hissələrin dəyişdirilməsi, aparat və avadanlıqların sazlanıb uyğun rejimlərə nizamlanması və sair cari təmir içlərinin satınalınması

Lot 13 - Tibb müəssisələri üçün nəzərdə tutulan ofis və tibbi təyinatlı mebellərin satınalınması.

Lot 14 - Tibb müəssisələri üçün nəzərdə tutulan yumşaq inventarların satınalınması

İddiaçılar öz tender təkliflərini bütün zəruri vergi və rüsumları nəzərə almaqla hesablamalıdırlar. Tender təklifləri “bal” sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Üstünlük veriləcək meyarlar: ən səmərəli qiymət, yüksək keyfiyyət və qrafikə uyğun malların təhvil verilməsi. Malların təchizat qrafiki 01.04.2019-cu ildən 31.12.2019-cu il tarixə kimi nəzərdə tutulmuşdur. Tenderdə iştirak etmək istəyənlər 4 mart 2019-cu il saat 17:00 tarixə kimi aşağıdakı sənədləri təqdim etməlidirlər.

- Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;
- İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- İddiaçının hüquqi statusunu təsdiq edən sənədlər;
- Qeydiyyatdan keçdiyi ölkə, qeydiyyat şəhadətnaməsinin, nizamnamənin, hüquqi ünvanı və bank rekvizitləri
- İddiaçının potensial imkanlarının olması haqqında arayış;
- Müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olub-olmaması barədə arayış.

Tender komissiyasının zəruri saydığı digər arayış və sənədlər;

Rəsmi müraciət etmiş iddiaçıların ixtisas uyğunluğu ilkin qiymətləndirilərək tender predmetini əhatə edən iddiaçılara əsas şərtlər toplusu veriləcəkdir. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

